**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

15 avqust 2026-cı il | №30 (9183) | www.muallim.edu.az | muallim@media.edu.az



## Prezident İlham Əliyev Naxçıvanın sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair sərəncam imzalayıb

Bax səh.2

# NAXÇIVAN AZƏRBAYCAN XALQINA DAHİ ŞƏXSİYYƏT HEYDƏR ƏLİYEV KİMİ ULU ÖNDƏR BƏXŞ EDİB



**Azərbaycan xalqı xoşbəxt xalqdır. Biz tariximizlə, mədəniyyətimizlə, görkəmli şəxsiyyətlərimizlə fəxr edə bilərik. Naxçıvan, eyni zamanda, Azərbaycana bir çox görkəmli şəxsiyyətlər bəxş edib. Naxçıvan Azərbaycan xalqına dahi şəxsiyyət Heydər Əliyev kimi Ulu Öndər bəxş edib. Yəni bu bölgənin zəngin tarixi, bu bölgədə yaşayan insanların mərdliyi, doğma Vətənə bağlılığı və eyni zamanda, Naxçıvanın strateji yerləşməsi və imkanları, burada icra olunan və olunacaq layihələr bu gün təkcə Azərbaycan üçün deyil, – halbuki birinci növbədə Azərbaycan üçün, – geniş coğrafiya üçün böyük əhəmiyyət kəsb edir.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsindən (11 avqust 2026-cı il)**



## Naxçıvanda tələbələr üçün yataqxana kompleksi tikiləcək

Naxçıvan Dövlət Universitetinin tələbələri üçün yataqxana kompleksi tikiləcək.

Bu, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında qeyd edilib.

Sərəncama əsasən, Naxçıvan Dövlət Universitetində tələbələr üçün 1000 yerlik yataqxana kompleksinin tikintisi məqsədilə Elm və Təhsil Nazirliyinə 25 milyon manat ayrılacaq.



## Naxçıvanda 5 yeni bağça inşa ediləcək

Naxçıvan Muxtar Respublikasında ümumilikdə 640 yerlik 5 yeni məktəbəqədər təhsil müəssisəsi tikiləcək.

Bu, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında qeyd edilib.

Sərəncama əsasən, Naxçıvan şəhərinin Bulqan kəndində 100 yerlik, Ordubad rayonunun Dəstə kəndində 100 yerlik, Şərur şəhərində 100 yerlik, Culfa rayonunun Əbrəqunus kəndində 240 yerlik, Kəngərli rayonunun Qarabağlar kəndində 100 yerlik yeni məktəbəqədər təhsil müəssisəsinin tikintisi üçün Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 20 milyon manat ayrılacaq.

## Xankəndidən dünyaya açılan universitet




Bax səh.4

## İntibah salnaməsi



Azərbaycanda milli oyanışa və pedaqoji hərəkatın yeni istiqamətdə inkişafına güclü təsir göstərən bu möhtəşəm qurultay sadəcə peşəkarların təhsil toplantısı deyil, həm də xalqımızın maariflənmə yolunda imperiya siyasətinə və ictimai geriliyə qarşı apardığı sistemli ideoloji-mədəni mübarizənin zirvəsi idi. Azərbaycan müəllimlərinin üzərinə götürdükləri bu tarixi missiya əsarət altında yaşayan xalqın milli şüurunun oyanmasına və haqq səsinin duyulmasına, milli dövlətçilik ideyalarının formalaşmasına, istiqlal, istiqbal və müstəqillik uğrunda mübarizəyə zəmin yaratdı. Çarizmin məhdudlaşdırıcı tədbirlərinə, mühafizəkar dairələrin müqavimətinə və ağır sosial-iqtisadi məhrumiyyətlərə baxmayaraq, milli ziyalılar ana dilli dünyəvi məktəb şəbəkəsinin genişləndirilməsi, müasir dərsliklərin tərtibi və milli pedaqoji kadr potensialının formalaşdırılması istiqamətində qətiyyətli addımlar atdılar.

İrəvandan Bakının intellektual mərkəzlərinə qədər uzanan bu maarifçilik hərəkatı bir daha təsdiq etdi ki, xalqın tərəqqisi və xilas yolu elmdən, təhsildən və ana dilinin qorunmasından keçir. İlk qurultay iştirakçılarının səpdiyi ideya toxumları zaman keçdikcə böyük ictimai hərəkata çevrildi, xalqımızın azadlıq salnaməsinə qızıl hərflərlə yazıldı.

Ardı səh.5

## Avropa Universitet Oyunlarının qalib komandası ilə görüş

Bax səh.3

## Dövlət Proqramı məzununun uğur hekayəsi

Bax səh.3

## Elmdə dürüstlük istedaddan daha vacibdir

Bax səh.7

## Keyfiyyətli təhsil və uğurlu karyeranın etibarlı təməli

Bax səh.8

# Prezident İlham Əliyev Naxçıvanın sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair sərəncam imzalayıb



Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda deyilir:

"Qədim tarixi, zəngin mədəniyyəti, dövlətçilik ənənələri və yüksək potensialı olan Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının iqtisadi, siyasi və mədəni həyatında xüsusi yer tutur, ölkəmizin inkişafında mühüm rol oynayır.

Naxçıvan Muxtar Respublikası bu gün dövlət proqramlarını və infrastruktur layihələrini uğurla həyata keçirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir.

Son illərdə Naxçıvan Muxtar Respublikasının davamlı sosial-iqtisadi inkişafının təmin edilməsi, infrastruktur təminatının və sosial xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi, habelə əhalinin məşğulluğunun və rifah halının yaxşılaşdırılması məqsədilə bir sıra mühüm dövlət proqramları və tədbirlər planları təsdiq olunmuş, o cümlədən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023—2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasında yeni istilik elektrik stansiyasının tikintisi ilə bağlı tədbirlər haqqında", "Naxçıvan Sənaye Parkının yaradılması haqqında", "Naxçıvan şəhərində ictimai nəqliyyatın tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında", "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026—2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında", "Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin yenidən qurulması və bərpası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı və sərəncamları qəbul edilmişdir.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli 1044 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026—2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində Naxçıvan Muxtar Respublikasında aqrar sektorun modernləşdirilməsi, ekstensiv istehsaldan intensiv modelə keçid və ərzaq təhlükəsizliyinin təmin olunması, habelə aqrar məhsul istehsalı kooperativləri və onların ittifaqlarının dövlət dəstəyi ilə pilot olaraq yaradılması və fəaliyyətinin dəstəklənməsi istiqamətində mühüm strateji hədəflər müəyyən edilmişdir.

Dövlət proqramlarının və infrastruktur layihələrinin uğurlu icrası nəticəsində Naxçıvan Muxtar Respublikası dinamik inkişafını davam etdirir. Bu çərçivədə Naxçıvan Regional DOST Mərkəzi inşa edilmiş, şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daha 68 mənzil ayrılmışdır.

Naxçıvan şəhərində görkəmli memar Əcəmi Naxçıvaninin abidəsi ucaldılmışdır və hazırda Möminə xatun türbəsində bərpa-konservasiya işləri aparılır.

Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir, o cümlədən Naxçıvan şəhərində Regional Rəqəmsal İdarəetmə və SCADA Mərkəzinin, 110/35/10 kV-luq "Naxçıvan", 154/110/10 kV-luq "Babək", Culfa rayonunda 132/110/10 kV-luq "Culfa" və Babək rayonunda 110/35/10 kV-luq "Çeşməbasar" elektrik yarımstansiyalarının inşası başa çatdırılmışdır və 400/330/110 kV-luq "Naxçıvan çevirici qovşaq" yarımstansiyasının tikintisinə hazırlıq işləri aparılır.

Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində yaşıl enerji zonası elan olunmuş muxtar respublikada ümumi gücü 50 MVt olan "Şəms 1" və "Üfüq" günəş elektrik stansiyalarının, habelə gücü 36 MVt olan "Ordubad" və 15,6 MVt olan "Tivi" su elektrik stansiyalarının inşası davam etdirilir.

Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində də işlər davam etdirilir, o cümlədən 194,2 kilometrlik təkxətli Naxçıvan dəmir yolu xəttinin 7 kilometrlik hissəsində tikinti işləri aparılır.

Hazırda Naxçıvan Sənaye Parkının, Naxçıvan şəhərində 518 mənzilli sosial evlərin və yeni otel kompleksinin tikintisinə başlanılması üçün müvafiq tədbirlər görülür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında 2026—2027-ci illərdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsini, yol, nəqliyyat və təhsil infrastrukturunun yenilənməsini, habelə abadlıq-quruculuq işlərinin davam etdirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə aşağıda qeyd olunan tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının dövlət büdcəsindən və Naxçıvan Muxtar Respublikasının büdcəsindən ümumilikdə 258,0 (iki yüz əlli səkkiz) milyon manat ayrılması nəzərdə tutulsun, o cümlədən:

1.1. Ordubad rayonunun Tivi kəndində Gilançay üzərində ümumi gücü 15,6 MVt olan Tivi Su Elektrik Stansiyasında tikinti-quraşdırma işlərinin davam etdirilməsi üçün "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə 66,0 (altmış altı) milyon manat;

1.2. ümumilikdə 156,3 min nəfər əhalinin yaşadığı 26 yaşayış məntəqəsini birləşdirən, ümumi uzunluğu 420 kilometr olan 2 kəndlərarası, 5 şəhər və 10 kəndin ərazisindəki avtomobil yollarının əsaslı təmiri üçün Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 70,0 (yetmiş) milyon manat (yolların siyahısı əlavə olunur);

1.3. Naxçıvan Dövlət Universitetində tələbələr üçün 1000 yerlik yataqxana kompleksinin tikintisi məqsədilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə 25,0 (iyirmi beş) milyon manat;

1.4. Naxçıvan, Şərur, Culfa, Ordubad və Şahbuz şəhərlərində ümumilikdə 2164 mənzilli 92 yaşayış binasının tam, Naxçıvan, Culfa və Şərur şəhərlərində cəmi 3087 mənzilli 70 yaşayış binasının isə yalnız fasad hissəsinin əsaslı təmiri üçün müvafiq şəhər (rayon) icra hakimiyyətlərinə 15,0 (on beş) milyon manat;

1.5. Naxçıvan Muxtar Respublikasında ümumilikdə 640 yerlik 5, o cümlədən Naxçıvan şəhərinin Bulqan kəndində 100 yerlik, Ordubad rayonunun Dəstə kəndində 100 yerlik, Şərur şəhərində 100 yerlik, Culfa rayonunun Əbrəqunus kəndində 240 yerlik, Kəngərli rayonunun Qarabağlar kəndində 100 yerlik yeni məktəbəqədər təhsil müəssisəsinin tikintisi üçün Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 20,0 (iyirmi) milyon manat;

1.6. şəhərlərarası ictimai nəqliyyat parkının yenilənməsi məqsədilə ilkin mərhələdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə 53,0 (əlli üç) milyon manat;

1.7. Naxçıvan, Şərur, Culfa və Ordubad şəhərlərində ümumilikdə 122 yaşayış binasının 5335 mənzilinə xidmət göstərən 45 istilik qazanxanasının əsaslı təmiri üçün müvafiq şəhər (rayon) icra hakimiyyətlərinə 9,0 (doqquz) milyon manat.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti, Maliyyə və İqtisadiyyat nazirlikləri, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər".

# Dövlət başçısı "Naxçıvan şəhərinin 2044-cü ilədək inkişafına dair Baş Planı" ilə tanış olub



## Naxçıvanın ümumtəhsil müəssisələrinin tutumu 23400-ə çatdırılacaq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 11-də "Naxçıvan şəhərinin 2044-cü ilədək inkişafına dair Baş Planı" ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlətimizin başçısına və birinci xanıma yeni Baş Plan, şəhərin gələcək inkişafı üzrə müəyyən edilmiş hədəflər və görüləcək işlər barədə məlumat verdi.

O bildirib ki, təhsil və səhiyyə xidmətləri nəzərə alınaraq, ümumtəhsil müəssisələrinin tutumu 23 min 400, məktəbəqədər təhsil müəssisələrinin tutumu 7 min 800, xəstəxanaların çarpayı fondu isə 650 yerə çatdırılacaq. Xidmət, nəqliyyat və logistika, sənaye, tikinti, turizm və aqrar sektorların inkişafı hesabına məşğulluq səviyyəsinin də 40 faizə yaxın artaraq 78 min nəfərə çatacağı gözlənilir.

# Prezident Naxçıvan şəhərində sosial evlər kompleksinin təməlini qoyub



## Kompleksdə uşaq bağçası da tikiləcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Naxçıvan şəhərində 518 mənzildən ibarət sosial evlər kompleksinin təməlini qoyub.**

"Azərbaycan müəllimi" AZƏRTAC-a istinadən xəbər verir ki, Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov dövlətimizin başçısına kompleksdə yaradılacaq şərait barədə məlumat verdi.

Bildirildi ki, Naxçıvan şəhərində çoxmənzilli yaşayış binalarının (güzəştli mənzillər) tikintisi üçün 5 hektara yaxın torpaq sahəsi ayrılıb.

Kompleksdə 6 və 7 mərtəbəli 16 bina inşa ediləcək. Burada 93 birotaqlı, 37 ikiotaqlı, 351 üçotaqlı, 37 dördotaqlı olmaqla, ümumilikdə 518 mənzil olacaq.

Yaşayış Kompleksində sakinlərin rahatlığı üçün zəruri infrastruktur yaradılacaq. Burada uşaq bağçasının və digər iaşə obyektlərinin tikintisi nəzərdə tutulur. Kompleks elektrik enerjisi, qaz, su və çirkab suların axıdılması sistemləri ilə təchiz ediləcək. Ərazidə yolların və səkilərin salınması, abadlaşdırma və yaşıllaşdırma işlərinin görülməsi nəzərdə tutulub.

Dövlətimizin başçısına Mənzil İnşaatı Dövlət Agentliyinin indiyədək icra etdiyi və nəzərdə tutulan layihələr barədə də məlumat verildi.

# AFFA-da Avropa Universitet Oyunlarının qalib komandası ilə görüş keçirilib

## *Görüşdə nazir müavini Firudin Qurbanov iştirak edib*








Xəbər verildiyi kimi, 15-25 iyul tarixlərində İtaliyanın Salerno şəhərində keçirilən və Avropa Universitet İdmanı Assosiasiyası (EUSA) tərəfindən təşkil olunan Avropa Universitet Oyunlarında ölkəmiz stolüstü tennis və futzal üzrə təmsil olunub. Futzal yarışlarında ölkəmizi Azərbaycan Tələbə Futbol Federasiyasının təşkilatçılığı ilə keçirilən Azərbaycan Tələbə Liqasının 2025-2026 mövsümünün qalibi Azərbaycan İdman Akademiyasının komandası təmsil edib.

Komandamız yarış ərzində güclü İspaniya, Norveç, Portuqaliya komandalarını məğlub edərək final mərhələsinə yüksəlib və turniri ikinci yerdə başa vurub. Yarışın yekununda komandamızın üzvü Ədalət Ələkbərov turnirin simvolik ən yaxşı beşliyinə seçilib.

Qeyd edək ki, Azərbaycan İdman Akademiyasının komandası Avropa Universitet İdmanı Assosiasiyasının (EUSA) təşkil etdiyi yarışlarda ötən il Avropa çempionu adına layiq görülüb. Bu il isə ardıcıl ikinci dəfə finala yüksələrək turniri ikinci yerdə başa vurub və ölkəmizi uğurla təmsil edib.

Azərbaycan İdman Akademiyasının komandasının Avropa Universitet Oyunlarında iştirakı Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının, Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasının və Azərbaycan İdman Akademiyasının dəstəyi ilə təmin olunub.

Avqustun 14-də AFFA-da Avropa Universitet Oyunlarının nəticələri ilə bağlı görüş keçirilib. Görüşdə elm və təhsil nazirinin müavini, Azərbaycan Tələbə Futbol Federasiyasının prezidenti Firudin Qurbanov, AFFA-nın baş katibi Cahangir Fərəcullayev, ATFF-nin baş katibi Lətif Novruz və Azərbaycan İdman Akademiyasının komanda üzvləri iştirak ediblər. Çıxış edənlər Azərbaycan İdman Akademiyasının komandasının Avropa Universitet Oyunlarında uğurlu nəticə qazanması münasibətilə təbriklərini çatdırıb, bu böyük nailiyyəti yüksək qiymətləndirib və gələcək beynəlxalq yarışlarda da uğurlu nəticələr əldə edəcəyinə əminliklərini bildiriblər.

Sonda xatirə şəkli çəkdirilib.

# DÖVLƏT PROQRAMI MƏZUNU

**Bir gəncin xaricdə təhsil almaq arzusu bəzən yalnız şəxsi gələcəyinin başlanğıcı deyil, bütöv bir ölkənin gələcəyinə qoyulan sərmayənin ilk addımı olur. Çünki dünyanın qabaqcıl universitetlərində və elmi mərkəzlərində qazanılan bilik, təcrübə və dünyagörüşü yalnız həmin gəncin karyerasını deyil, onun təmsil etdiyi ölkənin inkişafına da töhfə vermək imkanına malikdir. Azərbaycan dövlətinin gənclərimizin xaricdə təhsil almalarına yaratdığı geniş imkanlar da məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Dövlət Proqramı çərçivəsində dünyanın müxtəlif ölkələrində təhsil alan və bu gün öz sahələrində uğurla fəaliyyət göstərən azərbaycanlı gənclər artıq bu siyasətin real nəticələrini nümayiş etdirirlər. Azərbaycan Respublikasının insan kapitalının inkişafına yönəlmiş ən mühüm təşəbbüslərindən biri olan Dövlət Proqramı çərçivəsində xaricdə təhsil almış məzunlar bu gün müxtəlif ölkələrdə elmi, akademik və peşəkar fəaliyyətləri ilə ölkəmizi layiqincə təmsil edirlər. Xaricdə təhsil alan Azərbaycan gəncləri bu gün artıq təkcə tələbə deyil,beynəlxalq elmi mühitin fəal iştirakçıları və uğur qazanan mütəxəssislər kimi tanınırlar. Onların arasında Türkiyənin nüfuzlu ali təhsil müəssisələrində ixtisaslaşaraq elmi dərəcələr qazanan, akademik karyera quran və öz sahəsi üzrə beynəlxalq səviyyədə tanınan gənc həkimlər də var. Belə uğurlu məzunlardan biri ölkəmizdə onkologiya sahəsində fəaliyyət göstərən, İstanbul Universitetində ixtisaslaşaraq Türkiyədə “dosent” elmi adına layiq görülən Dövlət Proqramı məzunu Altay Əliyevdir. “Azərbaycan müəllimi”nə verdiyi müsahibədə o, təhsil və akademik fəaliyyəti, keçdiyi peşəkar yol, Dövlət Proqramının karyerasındakı rolu, Türkiyədə tibb təhsilinin özəllikləri barədə danışıb.DP məzunu həmçinin xaricdə təhsil almaq istəyən gənclər üçün öz təcrübəsindən irəli gələn məqamları bölüşüb.**



# "Xaricdə təhsil almaq həyatımın ən mühüm dönüş nöqtələrindən biri oldu"

## “Davamlı öyrənmək zamanla böyük nəticələrə gətirib çıxarır”

**“Orta təhsil illərində qazandığım uğurlar tibb sahəsinə yönəlmək qərarımda mühüm rol oynadı”**

*- Sizi yaxından tanımaq istərdik.*

- 1985-ci ildə Bakı şəhərində anadan olmuşam. Orta təhsilimi Bakı şəhəri 287 nömrəli “Zəkalar” liseyində almışam. Məktəb illərim həyatımda həm şəxsiyyət kimi formalaşmağım, həm də gələcək peşə seçimimin müəyyənləşməsi baxımından mühüm mərhələ olub. Respublika fənn olimpiadalarında biologiya fənni üzrə bir dəfə I yerə, iki dəfə isə IV yerə layiq görülməyim mənim üçün həm motivasiya, həm də gələcək hədəflərimə doğru atılmış mühüm addım oldu. Bu uğurlar elmə olan marağımı daha da artırdı və tibb sahəsinə yönəlmək qərarımda mühüm rol oynadı.

2003-cü ildə liseyi fərqlənmə attestatı ilə bitirdikdən sonra elə həmin il ali məktəblərə qəbul imtahanlarında yüksək nəticə göstərərək 660 balla Azərbaycan Tibb Universitetinin “Müalicə işi” ixtisasına qəbul oldum. Universitetdə “əla” qiymətlərlə oxuyurdum və hələ tələbəlik illərindən ixtisaslaşma üçün xaricdə təhsil almağın vacibliyini dərk edirdim. “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”na müraciət etdim. Proqram çərçivəsində bakalavr təhsilimi Türkiyənin nüfuzlu ali təhsil müəssisələrindən biri olan İstanbul Universitetinin Tibb fakültəsində davam etdirdim. Bu imkan mənə beynəlxalq standartlara uyğun tibb təhsili almaq, fərqli akademik mühitlə tanış olmaq və özümü daha geniş elmi platformada inkişaf etdirmək imkanı yaratdı.

2011-ci ildə “Tıpta uzmanlıq” imtahanında (TUS) uğur qazandıqdan sonra elə İstanbul Universitetinin Tibb fakültəsində “daxili xəstəliklər üzrə” uzmanlıq təhsili aldım. Oxuduğum dövr ərzində həm klinik təcrübə qazandım, həm də xəstəliklərin elmi əsaslarla öyrənilməsi və müalicəsinə dair dərin biliklər əldə etdim. 2016-cı ildən etibarən İstanbul Universitetinin Tibb fakültəsində “tibbi onkologiya” üzrə üst ixtisas təhsili aldım. Və bu mərhələ də mənim üçün onkologiya sahəsində daha dərin ixtisaslaşma, elmi fəaliyyət və akademik inkişaf yolunda mühüm addım oldu.

**“Dövlət Proqramı yüksək təhsil alıb biliklərimi ölkəmə xidmətə çevirmək imkanı yaratdı”**

*- Dövlət Proqramı sizin həyatınızda hansı rol oynayıb və bu gün geriyə baxdıqda həmin imkanı necə dəyərləndirirsiniz?*

- Dövlət Proqramının mənə verdiyi ən böyük dəstək, əlbəttə ki, yalnız maliyyə təminatı deyildi. Bu proqram bizi gündəlik sosial və maddi qayğılardan müəyyən mənada azad edərək bütün diqqətimizi təhsilə, elmə, peşəkar və akademik inkişafa yönəltməyə imkan verdi. Xaricdə təhsil alan bir tələbə üçün bu, çox böyük üstünlükdür. İnsan bütün enerjisini özünü inkişaf etdirməyə, yeni bilik və bacarıqlar qazanmağa, fərqli elmi məktəbləri və yanaşmaları öyrənməyə sərf edə bilir. Amma mən Dövlət Proqramının əhəmiyyətini yalnız fərdi karyera və ya şəxsi uğur kontekstində qiymətləndirməzdim. Bu proqramın arxasında daha böyük və strateji bir məqsəd- insan kapitalının formalaşdırılması dayanır.

Mən Türkiyədə təhsil alarkən yalnız öz ixtisasım üzrə biliklər əldə etmədim. Eyni zamanda, fərqli akademik mühitdə işləməyi, elmi yanaşmaları, müasir tədris və səhiyyə modellərini öyrəndim, beynəlxalq təcrübə ilə yaxından tanış olmaq imkanı qazandım.

Proqramın məzunu kimi əldə etdiyim bilik və təcrübəni Azərbaycanda səhiyyənin, elmin və tibbi təhsilin inkişafına töhfə vermək üçün istifadə etməyə çalışıram.

Bu gün geriyə baxdıqda xaricdə təhsil almaq imkanını həyatımın ən mühüm dönüş nöqtələrindən biri kimi qiymətləndirirəm. Dövlət mənə sadəcə xaricdə təhsil almaq imkanı vermədi. Eyni zamanda özümü inkişaf etdirmək, peşəmə başqa prizmadan yanaşmaq və son nəticədə qazandığım bilikləri ölkəmə xidmətə çevirmək imkanı yaratdı.

**“Həkimlik insan həyatına birbaşa toxunan peşələrdəndir”**

*- Niyə məhz həkimliyi seçdiniz?*

- Həkim olmaq uşaqlıqdan ən böyük arzum idi. Bu seçimimdə biologiya, kimya və fizika fənlərinə olan marağım mühüm rol oynayıb. Təbiət elmləri mənim üçün hər zaman maraqlı olub və insan orqanizmini, xəstəliklərin yaranma mexanizmlərini anlamaq istəyim zamanla həkimlik arzumu daha da gücləndirdi.

Bilirsiniz, uşaqlıq düşüncəmdə həkimlik mənə həmişə fərqli görünürdü. Çünki bu peşə insan həyatına birbaşa toxunan, bəzən bir qərarla taleyi dəyişə bilən peşələrdəndir. Məhz bu məsuliyyət və insanlara sağlamlıq bəxş etmək məni həkimlik peşəsinə cəlb etdi.Bu gün də hesab edirəm ki, həkimliyi seçməklə həyatımın ən doğru qərarlarından birini vermişəm.

**“Nəzəri biliklərin real klinik vəziyyətlərlə əlaqələndirilməsi dəyərli təcrübədir”**

*- Türkiyə tibb təhsilinin sizin üçün ən fərqli və diqqətçəkən xüsusiyyətləri nələr oldu?*

- Türkiyədə tibb təhsilinin mənə görə ən fərqli və diqqətçəkən xüsusiyyətlərindən biri nəzəri biliklərlə klinik praktikanın paralel şəkildə inkişaf etdirilməsidir. Tələbələr yalnız nəzəri məlumatları mənimsəməklə kifayətlənmir, erkən mərhələlərdən etibarən xəstəxana mühiti ilə tanış olur və klinik proseslərin içində iştirak edirdilər. Bu yanaşma bizə xəstə ilə düzgün ünsiyyət qurmağı, klinik düşünmə bacarığımızı inkişaf etdirməyi və əldə olunan məlumatlar əsasında tibbi qərarvermə prosesini daha yaxşı anlamağı öyrədirdi. Məncə, bu, nəzəri biliklərin real klinik vəziyyətlərlə əlaqələndirilməsi baxımından olduqca dəyərli təcrübədir.

Bununla yanaşı, məni ən çox təsirləndirən məqam həkimlik peşəsinin ömürboyu davam edən bir inkişaf və öyrənmə yolu kimi qəbul olunmasıdır. Universiteti bitirmək yalnız peşəkar inkişafın başlanğıcıdır. Həkim daim elmi yenilikləri izləməli, öz bilik və bacarıqlarını yeniləməli, davamlı inkişaf etməli və müasir yanaşmaları öyrənməlidir.

Türkiyədəki tibbi təhsil mühitinin mənə qazandırdığı ən mühüm yanaşmalardan biri də məhz bu oldu: yaxşı həkim olmaq yalnız çoxlu nəzəri məlumat bilməkdən deyil, həmin bilikləri klinik praktikada düzgün tətbiq etməkdən, xəstəyə individual yanaşmaqdan və daim öyrənməyə açıq olmaqdan keçir.

*- Akademik fəaliyyətinizi necə davam etdirdiniz?*

- Tibb fakültəsini bitirdikdən sonra akademik fəaliyyətimi fasiləsiz şəkildə davam etdirdim. Assistanlıq təhsilim dövründə nəzəri və praktiki biliklərimi paralel şəkildə inkişaf etdirməyə çalışırdım. Bir tərəfdən ixtisas üzrə təhsil alır, digər tərəfdən isə assistent həkim kimi klinik praktikada aktiv fəaliyyət göstərərək gündəlik xəstə idarəçiliyində, diaqnostik və müalicə proseslərində iştirak edirdim.- Bu dövr mənim üçün yalnız klinik təcrübə qazanmaq deyil, eyni zamanda elmi düşüncə və araşdırma bacarıqlarımı formalaşdırmaq baxımından da çox əhəmiyyətli oldu.

Daha sonra tibbi onkologiya üzrə üst ixtisas təhsilim zamanı da bu paralel yanaşmanı davam etdirdim. Mənim üçün klinik fəaliyyətlə akademik fəaliyyət həmişə bir-birini tamamlayan iki istiqamət olub.

Asistanlıq təhsilim müddətində altı ay ABŞ-nin “Cleveland Clinic” mərkəzində elmi-tədqiqat fəaliyyətində iştirak etmək imkanım oldu. Beynəlxalq səviyyədə fəaliyyət göstərən böyük bir akademik tibb mərkəzində elmi araşdırmaların necə planlaşdırıldığını, həyata keçirildiyini və nəticələrin qiymətləndirildiyini yaxından müşahidə və bu prosesdə birbaşa iştirak etmək mənə akademik baxımdan çox dəyərli təcrübə qazandırdı.

**“Dosent” elmi adına layiq görülmək mənim üçün yalnız akademik titul əldə etmək deyil…”**

*- Elmi fəaliyyətinizdə hansı istiqamətlər üzrə tədqiqatlar aparırsınız?*

- Elmi fəaliyyətimin əsas istiqamətləri mədə və süd vəzi xərçəngidir. Azərbaycan dünyada mədə xərçənginin yüksək yayılma qurşağında (Gastric Cancer Belt) yerləşən ölkələrdən biridir. GLOBOCAN-ın son statistikasına əsasən, ölkəmizdə mədə xərçəngi görülmə tezliyinə görə 3-cü, xərçəngdən ölüm hallarına görə isə 2-ci yerdə qərarlaşır. Bu səbəbdən tədqiqatlarımız əsasən mədə xərçənginin erkən diaqnostikası, müalicə nəticələrinin yaxşılaşdırılması və süd vəzi xərçəngi sahəsinə yönəlib. Gələcəkdə isə bu xəstəliklərin etioloji səbəblərini araşdırmağa yönəlmiş genişmiqyaslı, çoxmərkəzli elmi layihələr həyata keçirməyi planlaşdırırıq.

**“Bu nailiyyət mənim üçün yeni məsuliyyət deməkdir”**

*- Bu yaxınlarda Türkiyə Respublikası Universitetlərarası İdarə Heyətinin (ÜAK) qərarı və altı münsif üzvünün müsbət rəyi əsasında “Tibbi onkologiya” ixtisası üzrə “dosent” adını almısınız. Əldə etdiyiniz nailiyyət sizin üçün nə ifadə edir?*

- Türkiyədə “dosent” elmi adına layiq görülmək mənim üçün yalnız akademik titul əldə etmək deyil. Bu, uzun illər ərzində göstərdiyim səylərin, elmi fəaliyyətə bağlılığımın və davamlı inkişaf istiqamətində apardığım çalışmaların nəticəsidir. Əldə etdiyim uğur mənə bir daha göstərdi ki, sistemli və ardıcıl çalışma, elmi prinsiplərə sadiqlik və beynəlxalq akademik standartlara uyğun fəaliyyət mütləq öz nəticəsini verir.

Bilirsiniz, elmi karyera uzunmüddətli və səbir tələb edən bir yoldur. Bu yolda əldə olunan hər bir nailiyyətin arxasında illərlə aparılan tədqiqatlar, elmi məqalələr, toplanmış təcrübə və daim öyrənmək, yenilənmək istəyi dayanır.

Eyni zamanda, bunu yalnız şəxsi nailiyyətim kimi qiymətləndirmirəm. Bütövlükdə xaricdə təhsil almış azərbaycanlı mütəxəssislərin beynəlxalq elmi mühitdə rəqabət apara bilmələrinin uğurlu nümunələrindən biri hesab edirəm. Azərbaycanlı alimlərin dünyanın müxtəlif ölkələrinin nüfuzlu universitetlərdə və elmi mərkəzlərdə fəaliyyət göstərmələri ölkəmizin böyük elmi potensialının göstəricisidir.

Bu nailiyyət mənim üçün eyni zamanda yeni məsuliyyət deməkdir. Və hesab edirəm ki,elmi adın əsl dəyəri onun yaratdığı imkanlarla yanaşı, insana verdiyi yeni məsuliyyətlə ölçülür.

*- Xaricdə təhsil almağı planlaşdıran gənclərə nə tövsiyə edərdiniz?*

- Xaricdə təhsil almağı planlaşdıran gənclərə məqsədlərindən heç vaxt vaz keçməmələrini və elmi fəaliyyətə mümkün qədər erkən başlamalarını tövsiyə edirəm.Düşünürəm ki,uğurlu akademik və peşəkar karyeranın formalaşmasında yalnız nəzəri biliklər deyil, elmi düşüncə, araşdırma aparmaq bacarığı və daim öyrənmək istəyi də mühüm rol oynayır.Buna görə də gənclər tələbəlik illərindən elmi fəaliyyətlə, tədqiqat layihələri ilə və beynəlxalq akademik mühitlə tanış olmağa çalışmalıdırlar.

Sədri olduğum Azərbaycan Cərrahiyyə, Qastroenterologiya və Onkologiya Cəmiyyəti vasitəsilə də tələbələr üçün xaricdə tədqiqat və müşahidəçi (observership) imkanları yaratmağa, bu istiqamətdə beynəlxalq əməkdaşlıqlar qurmağa, onlara dəstək verməyə çalışırıq.

Ən əsası gənclər qarşılarına qoyduqları məqsədlərin böyüklüyündən çəkinməməlidirlər. Bəzən böyük nəticələr bir anda əldə olunmur. Lakin ardıcıl şəkildə atılan kiçik addımlar, davamlı öyrənmək və qarşıya çıxan çətinliklərdən ruhdan düşməmək zamanla böyük nəticələrə gətirib çıxarır.

**Samirə KƏRİMOVA**

# XANKƏNDİDƏN DÜNYAYA AÇILAN UNİVERSİTET



Ali təhsil müasir cəmiyyətin intellektual, elmi və iqtisadi inkişafını müəyyənləşdirən başlıca institutlardan biridir. Bu baxımdan yeni universitetin yaranması yalnız yeni təhsil imkanlarının yaradılması deyil, həm də fərqli akademik düşüncənin, elmi məktəbin və gələcəyə hesablanmış inkişaf modelinin formalaşdırılması deməkdir. Qarabağ Universitetinin Xankəndidə fəaliyyətə başlaması bu prosesə xüsusi məzmun verir. Universitetin missiyası müasir təhsil standartlarına cavab verən mütəxəssislər hazırlamaqla yanaşı, elm və innovasiyanı inkişaf etdirmək, yüksək intellektual potensiala malik insan kapitalı formalaşdırmaq və Qarabağın davamlı inkişafına elmi töhfə vermək baxımından da əhəmiyyət daşıyır. Sürətlə dəyişən texnoloji reallıq, süni intellektin geniş tətbiqi, əmək bazarının transformasiyası və qlobal akademik rəqabətin güclənməsi universitetlər qarşısında yeni vəzifələr müəyyənləşdirir. Bu şəraitdə Qarabağ Universitetinin öz akademik kimliyini hansı prinsiplər üzərində qurduğu, elmi-tədqiqat və innovasiya potensialını necə inkişaf etdirdiyi, beynəlxalq akademik məkana inteqrasiyanı hansı istiqamətlərdə həyata keçirdiyi və Qarabağın gələcək inkişafına hansı elmi töhfələri verməyi hədəflədiyi xüsusi maraq doğurur. Bu kontekstdə Qarabağ Universitetinin akademik fəlsəfəsi, elmi-tədqiqat və innovasiya gündəliyi, beynəlxalqlaşma strategiyası, tələbəyönümlü inkişaf modeli, eləcə də Qarabağın davamlı inkişafına verə biləcəyi elmi töhfələr və universitetin uzunmüddətli strateji hədəfləri barədə Qarabağ Universitetinin rektoru, professor Şahin Bayramovun baxışlarını öyrəndik.

## *Şahin Bayramov:* Qarabağ Universiteti müasir universitet modelinin qurulduğu dinamik akademik platformadır

*– Şahin müəllim, Qarabağ Universiteti ölkənin ali təhsil sisteminə yeni nəfəs gətirən ali təhsil müəssisələrimizdən biridir. Fikrinizcə, Qarabağ Universitetini digər ali təhsil müəssisələrindən fərqləndirən əsas xüsusiyyətlər hansılardır? Universitet hansı təhsil fəlsəfəsi üzərində qurulur?*

– Qarabağ Universiteti öz yaranma missiyası, yerləşdiyi məkan və inkişaf modeli baxımından ölkəmizin ali təhsil sistemində xüsusi mövqeyə malikdir. Universitet işğaldan azad edilmiş ərazilərdə yaradılmış və hazırda fəaliyyət göstərən yeganə ali təhsil müəssisəsidir. Eyni zamanda, cəmi iki illik fəaliyyət tarixinə malik olan Qarabağ Universiteti ölkəmizin ən gənc universitetlərindən biridir. Bu baxımdan universitetin qarşısında həm tarixi məsuliyyət, həm də qısa müddətdə müasir və rəqabətqabiliyyətli ali təhsil modeli formalaşdırmaq kimi mühüm vəzifə dayanır.

Qısa müddət ərzində universitetdə sürətli institusional böyümə, akademik keyfiyyətin yüksəldilməsi, elmi fəaliyyətin genişləndirilməsi, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və tələbə nailiyyətlərinin artırılması istiqamətində mühüm nəticələr əldə etdik. Bu proses göstərdi ki, Qarabağ Universiteti sadəcə yeni yaradılmış ali təhsil müəssisəsi deyil, müasir universitet modelinin qurulduğu dinamik akademik platformadır.

Universitetimizin bu sürətli inkişafının əsasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qarabağ Universitetinə xüsusi diqqəti və davamlı dövlət dəstəyi dayanır. Dövlət başçısının 2025-ci ildə iki dəfə universitetimizdə olması, Qarabağ Universitetinin Klinikası və Tibb və Sağlamlıq Elmləri fakültəsinin tədris korpusunun, Biznes və İqtisadiyyat fakültəsinin yeni binasının açılışında iştirakı, Mühəndislik fakültəsinin yeni binasının təməlini qoyması universitetimizin inkişafına verilən strateji əhəmiyyətin bariz göstəricisidir.

Eyni zamanda, bizim üçün universitet quruculuğu yalnız infrastruktur yaratmaqdan ibarət deyil. Qarabağ Universitetini formalaşdırarkən əsas məqsədimiz Xankəndidə müasir dünyanın tələblərinə cavab verən, tələbəmərkəzli, tədqiqat və innovasiya yönümlü, beynəlxalq akademik mühitə inteqrasiya olunmuş yeni nəsil universitet modeli yaratmaqdır.

Bu modelin mərkəzində tələbə dayanır. Biz tələbəni yalnız bilik alan şəxs kimi deyil, universitet həyatının fəal iştirakçısı, tədqiqatçı, təşəbbüskar və gələcəkdə öz sahəsində dəyişiklik yarada biləcək mütəxəssis kimi görürük. Buna görə də təhsil proqramlarının hazırlanmasında fundamental akademik biliklərlə yanaşı, əmək bazarının və gələcəyin tələblərini də nəzərə alırıq. Data analitikası, süni intellekt, proqramlaşdırma, rəqəmsal bacarıqlar, analitik və tənqidi düşüncə, kommunikasiya və komanda işi kimi kompetensiyalar müxtəlif proqramlarımızın mühüm tərkib hissəsinə çevrilir.

Eyni zamanda, biz rəqəmsallaşmanı yalnız texnologiyaların tətbiqi kimi deyil, universitetin idarəetmə və təhsil fəlsəfəsinin ayrılmaz hissəsi kimi qəbul edirik. Məqsədimiz çevik, şəffaf, məlumatlara əsaslanan və tələbə ehtiyaclarına sürətlə cavab verən müasir universitet ekosistemi formalaşdırmaqdır.

Qarabağ Universitetinin xarakterik cəhətlərindən biri də milli missiya ilə qlobal baxışın vəhdətidir. Biz Xankəndidə fəaliyyət göstərən universitet kimi Qarabağın inkişafına, yeni insan kapitalının formalaşmasına və regionun elmi-intellektual potensialının gücləndirilməsinə töhfə verməyi özümüz üçün xüsusi məsuliyyət hesab edirik. Eyni zamanda, tələbələrimizi yalnız yerli deyil, beynəlxalq əmək bazarında da rəqabət apara biləcək səviyyədə hazırlamağa çalışırıq.

Bütün bu yanaşmaların arxasında isə dəyişməyən bir prinsip dayanır: müasir dünyanı anlayan, qlobal düşünən, yeni bilik və texnologiyaları mənimsəyən, eyni zamanda milli dəyərlərə bağlı və ölkəsinin gələcəyinə töhfə verməyə hazır insan kapitalı yetişdirmək.

*– Qarabağ Universitetinin Xankəndidə yerləşməsi onun fəaliyyətinə və inkişaf istiqamətlərinə hansı xüsusi məna verir? Universitet Qarabağın gələcəyində hansı rolu oynamağı hədəfləyir?*

– Qarabağ Universitetinin Xankəndidə fəaliyyət göstərməsi, şübhəsiz ki, universitetə xüsusi tarixi və mənəvi missiya verir. Lakin biz bu missiyanı yalnız simvolik müstəvidə deyil, konkret akademik nəticələrlə ifadə etmək istəyirik.

Biz Qarabağ Universitetini Qarabağda yeni insan kapitalının formalaşmasının, elmi, mədəni və ictimai həyatın inkişafının əsas mərkəzlərindən biri kimi görürük. Başqa sözlə, universitetin inkişafını regionun inkişafından ayrı təsəvvür etmirik.

Buna görə də Qarabağın bərpası və uzunmüddətli inkişafı ilə bağlı məsələlər həm kadr hazırlığı istiqamətlərində, həm də elmi gündəliyimizdə xüsusi yer tutur. Təmiz enerji, iqlim dəyişiklikləri, dayanıqlı inkişaf, kənd təsərrüfatı, innovativ infrastruktur, şəhərsalma, ekologiya, səhiyyə və sosial inkişaf kimi istiqamətlər üzrə tədqiqat potensialımızı gücləndirməyi hədəfləmişik.

Universitetimiz Xankəndinin yenidən mühüm akademik və intellektual mərkəzə çevrilməsinə əhəmiyyətli töhfə verir. Artıq müxtəlif ölkələrdən alimlərin, tələbələrin, ekspertlərin və gənclərin Xankəndidə bir araya gəldiyi beynəlxalq tədbirlər keçirilir. Bütün bu təşəbbüslər Xankəndinin yalnız universitet şəhəri deyil, həm də beynəlxalq intellektual dialoq məkanına çevrilməsi istiqamətində atılan addımlardır.

Regionda gedən quruculuq prosesi universitet üçün həm böyük məsuliyyət, həm də unikal elmi imkanlar yaradır. Perspektivdə universitetimizin timsalında Qarabağı müxtəlif sahələr üzrə tətbiqi tədqiqatların aparıldığı, innovativ həllərin sınaqdan keçirildiyi və yeni texnologiyaların tətbiq olunduğu unikal inkişaf platformasına çevirməyi hədəfləyirik.

*– Bir az əvvəl qeyd etdiyiniz kimi, süni intellekt və rəqəmsal texnologiyalar əmək bazarını sürətlə dəyişir. Qarabağ Universiteti tələbələri gələcəyin peşələrinə necə hazırlayır?*

– Həqiqətən də dinamik dəyişən müasir əmək bazarı şəraitində bu gün universitetə daxil olan bir gəncin 5—10 ildən sonra hansı peşədə çalışacağını tam dəqiqliklə proqnozlaşdırmaq artıq mümkün deyil. Buna görə də müasir universitet tələbəni yalnız konkret peşəyə deyil, dəyişən peşələr dünyasına hazırlamalıdır.

Bizim əsas yanaşmamız budur: tələbə universiteti bitirəndə yalnız bir ixtisas üzrə biliklərə deyil, yeni bilikləri müstəqil şəkildə öyrənmək, onları müxtəlif situasiyalarda tətbiq etmək və dəyişən tələblərə uyğunlaşmaq bacarığına da sahib olmalıdır.

Bu baxımdan tədris proqramlarımızda süni intellekt, data analitikası, proqramlaşdırma, rəqəmsal texnologiyalar, analitik və tənqidi düşüncə, kommunikasiya və komanda işi kimi kompetensiyaların inkişafına xüsusi diqqət yetirilir.

Məsələn, Oksford Universitetinin alimləri ilə birgə hazırladığımız "İqtisadiyyat" proqramında iqtisadi biliklərlə yanaşı data analitikası, süni intellekt və proqramlaşdırma komponentləri də yer alır. Bu, gələcəyin iqtisadçısının yalnız iqtisadi nəzəriyyəni bilməsi deyil, böyük həcmli məlumatlarla işləyə, onları təhlil edə və texnologiyalardan istifadə etməklə qərarvermə prosesinə töhfə verə bilməsi deməkdir.

Əlbəttə, gələcəyin əmək bazarına hazırlıq yalnız rəqəmsal bacarıqlarla məhdudlaşmır. Biz eyni zamanda akademik proqramlarımızın beynəlxalq peşə standartlarına uyğunluğuna böyük əhəmiyyət veririk. Ən mühüm nailiyyətlərimizdən biri Biznes və İqtisadiyyat fakültəsinin "Mühasibat" və "Maliyyə" proqramlarının ACCA tərəfindən beynəlxalq akkreditasiyadan keçirilməsi olub. Qarabağ Universitetinin ilk beynəlxalq proqram akkreditasiyası kimi tarixə düşən bu nəticə həmin proqramların məzmununun və təlim nəticələrinin beynəlxalq peşə standartlarına uyğunluğunun təsdiqidir. Bu, tələbələrimiz üçün yalnız akademik keyfiyyət göstəricisi deyil, həm də gələcək peşə fəaliyyətlərində beynəlxalq səviyyədə tanınan kompetensiyalar qazanmaq baxımından mühüm üstünlükdür.

Tibb təhsilində tətbiq etdiyimiz inteqrasiya olunmuş və kompetensiyaya əsaslanan yanaşma, simulyasiya və klinik bacarıqların inkişafı, eləcə də tədqiqat düşüncəsinin formalaşdırılması da məhz bu fəlsəfəyə əsaslanır.

Eləcə də Pedaqoji, İncəsənət, Humanitar və Sosial Elmlər fakültələrində tətbiq olunan müasir və yeni məzmunlu təhsil proqramları tələbələrin öz ixtisasları üzrə nəzəri biliklərlə yanaşı, əmək bazarının perspektiv ehtiyaclarına uyğun praktiki bilik və bacarıqları mənimsəmələrinə əlverişli imkanlar yaradır.

Universitetdə süni intellektlə bağlı tələbə təşəbbüslərinin və elmi tədbirlərin təşviqi də bu yanaşmanın mühüm hissəsidir. "Süni intellektlə təhsilin yenidən formalaşdırılması" mövzusunda tələbə elmi konfransının təşkili buna nümunədir.

Bizim üçün gələcəyin məzunu yalnız iş axtaran deyil, dəyişiklikləri qabaqlayan, yeni imkanlar yaradan və öz biliklərini daim yeniləyə bilən mütəxəssis olmalıdır.

*– Universitetin tədqiqat və innovasiya istiqamətində hansı nəticələri var? Elmin real iqtisadi və sosial dəyərə çevrilməsi üçün hansı model qurulur?*

– Tədqiqat universitetinin formalaşdırılması Qarabağ Universitetinin uzunmüddətli hədəflərindən biridir. İlk illərdən akademik heyətin elmi fəaliyyətə cəlb olunması, gənc tədqiqatçıların yetişdirilməsi və beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi istiqamətində sistemli iş aparırıq.

Bunun nəticələrini artıq elmi nəşrlərimizdə görmək mümkündür. "Scopus" bazasında indekslənən nəşrlərimizin sayı 2024-cü ildə 6, 2025-ci ildə 26, 2026-cı ilin ilk altı ayında isə 30 olub. Beləliklə, universitetimizin fəaliyyət göstərdiyi iki akademik il ərzində "Scopus" bazasında indekslənən məqalələrin ümumi sayı 62-yə çatıb.

Əməkdaşlarımızın tədqiqatları "Scientific Reports", "Journal of Environmental Management", "IEEE Access", "ACS Omega", "RSC Advances" və digər beynəlxalq elmi jurnallarda dərc olunub.

Lakin bizim üçün yalnız nəşrlərin sayı əsas göstərici deyil. Əsas məsələ elmi nəticələrin real problemlərin həllinə və innovativ məhsullara çevrilməsidir.

Bunun üçün universitet—sənaye əməkdaşlığının inkişafına xüsusi önəm veririk. SOCAR ilə əməkdaşlıq, həmçinin Azərbaycan Beynəlxalq Bankı, Dövlət Vergi Xidməti, Milli Məclis, Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası, Dövlət Neft Fondu və Bakı Fond Birjası kimi qurumlarla əməkdaşlıq tələbələrin və akademik heyətin real sektorla əlaqəsini gücləndirir.

Növbəti mərhələdə məqsədimiz bu əməkdaşlıqları daha çox birgə tədqiqat, tətbiqi layihə, startap və innovasiya istiqamətinə yönəltməkdir.

İstəyirik ki, universitetdə yaranan hər bir ideya, əldə edilən hər bir tədqiqat nəticəsi auditoriyada qalmasın, real məhsul və ya xidmətə çevrilə bilsin.

*– Qarabağ Universitetində tələbə həyatı və tələbələrin şəxsi inkişafı üçün hansı imkanlar yaradılıb? Universitet tələbələrinə yalnız diplom deyil, hansı əlavə üstünlükləri qazandırır?*

– Bizim üçün universitet həyatı auditoriya ilə məhdudlaşmır. Tələbənin universitetdə keçirdiyi illər onun yalnız peşəkar deyil, həm də şəxsiyyət kimi formalaşdığı, dünyagörüşünün genişləndiyi və öz potensialını kəşf etdiyi mühüm bir mərhələdir. Buna görə də tələbələrimizin elmi, intellektual, innovativ, sosial, mədəni və idman fəaliyyətlərində fəal iştirakını dəstəkləyən geniş imkanlar yaradırıq.

Bu yanaşmanın nəticələrini tələbələrimizin müxtəlif sahələrdə qazandığı uğurlarda görmək mümkündür. Məsələn, "Vergilər" mövzusunda ümumrespublika olimpiadasında 29 ali təhsil müəssisəsindən 352 tələbə arasında Qarabağ Universitetinin tələbələri birinci və ikinci yerləri qazanıblar.

İnnovasiya və texnologiya sahəsində də tələbələrimizin fəallığı diqqətçəkəndir. Tələbələrimiz Beynəlxalq STEAM Azərbaycan Festivalında, Beynəlxalq Astronavtika Konqresində və müxtəlif innovasiya platformalarında universitetimizi layiqincə təmsil ediblər. Tələbələrin hazırladığı bir sıra innovativ layihələr beynəlxalq forum və sərgilərdə maraqla qarşılanıb. "Enactus Qarabağ" komandamızın Azərbaycan üzrə qalib olaraq Tailandda Dünya Kubokunda ölkəmizi təmsil etməsi, tələbələrimizin Türkiyədə keçirilən "Türk Dünyası PUA" yarışında üçüncü yerə layiq görülməsi də bu istiqamətdəki uğurlarımız sırasındadır.

Elmi-tədqiqat fəaliyyətinə tələbələrin erkən mərhələdə cəlb olunmasına da xüsusi əhəmiyyət veririk. Universitetimizdə təşkil olunan "EDUcon 2026" və "Gələcəyin Mühəndisi" kimi platformalar tələbələrə öz elmi ideyalarını təqdim etmək, tədqiqat aparmaq və müxtəlif sahələrdən olan həmyaşıdları ilə fikir mübadiləsi aparmaq imkanı yaradır.

Beynəlxalq təcrübə və dünyagörüşünün formalaşması da tələbə həyatımızın mühüm istiqamətlərindəndir. QUMUN 2026 Beynəlxalq BMT Modeli konfransında 20-dən çox ölkədən 100-dən artıq iştirakçının Xankəndidə bir araya gəlməsi tələbələrimiz üçün beynəlxalq dialoq və əməkdaşlıq mühiti yaradıb.

Tələbə həyatının mühüm istiqamətlərindən biri də incəsənət və yaradıcılıqdır. İncəsənət fakültəsinin tələbə və müəllimlərinin VIII və IX "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında təmsil olunması universitetimizin yalnız akademik deyil, həm də ölkənin mədəni həyatında fəal iştirak etdiyini göstərir.

Bütün bunların məqsədi aydındır: Qarabağ Universitetinin məzunu yalnız öz ixtisasını yaxşı bilən mütəxəssis deyil, liderlik edə bilən, təşəbbüs göstərən, tədqiqat aparan, innovativ düşünən, komanda ilə işləyən, öz fikrini inamla ifadə edən və qlobal mühitdə rəqabət apara bilən şəxsiyyət kimi formalaşmalıdır. Biz istəyirik ki, tələbələr universiteti bitirərkən diplomla yanaşı, real təcrübə, zəngin əlaqələr şəbəkəsi, beynəlxalq dünyagörüşü və öz ideyalarını reallaşdırmaq cəsarəti də qazansınlar.

*– Qarabağ Universitetinin beynəlmiləlləşməsi istiqamətində görülən işlər hansı mərhələdədir? Tələbələr üçün xarici universitetlərlə əməkdaşlıq hansı imkanları yaradacaq?*

– Beynəlmiləlləşmə bizim üçün sadəcə xarici universitetlərlə memorandumların sayını artırmaq demək deyil. Əsas məqsəd beynəlxalq əməkdaşlığı tələbənin və müəllimin real akademik imkanlarına çevirməkdir.

2025-2026-cı tədris ilində Qarabağ Universitetinin Türk Universitetlər Birliyinə — TÜRKÜNİB-ə üzv qəbul olunması bu baxımdan mühüm institusional addım olub.

İstanbul Texniki Universiteti, Ankara Universiteti, Hacettepe Universiteti, Başkent Universiteti, Qazi Universiteti, İzmir Yüksək Texnologiya İnstitutu, Ankara Hacı Bayram Veli Universiteti, Əl-Farabi adına Qazax Milli Universiteti və digər ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələri qurulub və inkişaf etdirilir.

Bu əməkdaşlığın tələbə üçün konkret nəticələrindən biri 2026-2027-ci tədris ilində İstanbul Texniki Universiteti ilə 4 mühəndislik ixtisası üzrə beynəlxalq ikili diplom proqramlarının başlanmasıdır.

Bu proqramlarda iştirak edən tələbə yalnız iki universitetin akademik imkanlarından yararlanmayacaq. O, beynəlxalq akademik mühit, qabaqcıl mühəndislik təcrübəsi və qlobal əmək bazarına çıxış baxımından da əlavə imkanlar əldə edəcək.

Bundan başqa, ingilis dilində tədrisin genişləndirilməsi, akademik mobillik, xarici professorların universitetə cəlb olunması və tələbələrimizin xarici universitetlərdə təhsil və tədqiqat imkanlarının artırılması üzərində çalışırıq.

Biz istəyirik ki, Qarabağ Universitetinə daxil olan tələbə Xankəndidə yüksək keyfiyyətli təhsil alsın, amma akademik dünyası Xankəndi ilə məhdudlaşmasın.

*– Qarabağ Universitetini 5—10 il sonra necə görürsünüz? Universitetin uzunmüddətli strateji hədəfləri nələrdir?*

– Qarabağ Universitetinin qarşısında kifayət qədər iddialı hədəflər dayanır. Bir daha vurğulayıram ki, biz universitetimizi müasir, tələbəmərkəzli, tədqiqat əsaslı, innovasiya yönümlü və beynəlxalq rəqabətqabiliyyətli ali təhsil və elm mərkəzi kimi formalaşdırmaq istəyirik.

Bunun üçün bir neçə əsas istiqamət bizim üçün prioritetdir: akademik proqramların keyfiyyətinin davamlı yüksəldilməsi və beynəlxalq akkreditasiyasının genişləndirilməsi, güclü akademik və tədqiqatçı heyətin formalaşdırılması, elmi nəşrlərin keyfiyyət və təsir göstəricilərinin artırılması, tətbiqi tədqiqat və innovasiyanın inkişafı, sənaye və dövlət qurumları ilə əməkdaşlığın genişləndirilməsi, beynəlxalq ikili diplom və mobillik proqramlarının artırılması, ingilisdilli təhsilin genişləndirilməsi, eləcə də təhsil, tədqiqat, idarəetmə və kampus infrastrukturunu data, süni intellekt və rəqəmsal texnologiyalar əsasında birləşdirən "ağıllı universitet" ekosisteminin formalaşdırılması.

Bizim üçün "ağıllı universitet" yalnız texnoloji həllərin tətbiqi demək deyil. Burada məqsəd tələbə və müəllim üçün daha fərdiləşdirilmiş təhsil imkanları yaratmaq, idarəetmə qərarlarını data və analitika əsasında qəbul etmək, universitet resurslarından daha səmərəli istifadə etmək və bütün əsas akademik və inzibati xidmətləri vahid rəqəmsal mühitdə inteqrasiya etməkdir. Beləliklə, texnologiya universitet həyatının ayrı-ayrı sahələrinə deyil, bütövlükdə universitetin fəaliyyət modelinə xidmət edəcək.

2026-2027-ci tədris ilində Qarabağ Universiteti 758-i Azərbaycan, 645-i ingilis dilində olmaqla, ümumilikdə 1403 qəbul planı üzrə 49 ixtisasla, o cümlədən İstanbul Texniki Universiteti ilə 4 mühəndislik ixtisası üzrə ikili diplom proqramları ilə yeni mərhələyə qədəm qoyur. Növbəti tədris ilində universitetdə 3000-dən çox tələbənin və 500-dən çox akademik, inzibati və texniki heyət üzvünün fəaliyyət göstərəcəyi nəzərdə tutulur.

Biz Qarabağ Universitetini Xankəndidə elmin, təhsilin, innovasiyanın və mədəni həyatın aparıcı mərkəzlərindən biri, eyni zamanda Azərbaycanın beynəlxalq akademik məkanda tanınan universitetlərindən biri kimi görürük.

İstəyirik ki, universitetimiz istedadlı gənclərin və alimlərin seçdiyi, beynəlxalq tərəfdaşların əməkdaşlıq etmək istədiyi, yeni ideyaların yarandığı və həmin ideyaların real nəticələrə çevrildiyi bir akademik mərkəz olsun.

Ən əsası isə Qarabağ Universitetinin Qarabağın dirçəlişinə yalnız kadr hazırlamaqla deyil, eləcə də elm, innovasiya, sahibkarlıq və yeni ideyalar vasitəsilə töhfə verməsini istəyirik.

Bizim üçün Qarabağ Universitetinin gələcəyinin ən doğru ifadəsi bəlkə də budur: Xankəndidən dünyaya açılan, dünyadakı qabaqcıl bilik və təcrübəni Qarabağa gətirən, Qarabağda yaratdığı dəyəri isə dünyaya çıxaran universitet.

**"İki sahil"**

# AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN İLK QURULTAYI -120

# İntibah salnaməsi

*(Əvvəli 1-ci səhifədə)*

**120 il əvvəl:**
**15 avqust 1906-cı il**

Qafqaz müsəlman müəllimlərinin illərdir gözlədiyi tarixi gün. Həmin gün Qafqaz müsəlman müəllimlərinin I qurultayı Bakıda 2-ci şəhər ikisinifli rus-Azərbaycan məktəbinin binasında öz işinə başladı. Zalda rəsmi dəvət olunan 60 nəfər nümayəndə ilə bərabər, mətbuat işçiləri və digər qonaqlar iştirak edirdi. Qurultayda nümayəndə kimi iştirak edən 60 nəfərdən 30 nəfəri Bakı şəhərindən, 20 nəfəri digər yerlərdən, 10 nəfəri isə maariflə maraqlanan şəxslər idi. Başqa yerlərdən gələnlərin çoxu elmi-ilahi və şəriət müəllimləri idilər. Ümumiyyətlə, tədbirdə iştirak edənlərin ümumi sayı 100 nəfərdən artıq idi. Qurultaya həm ayrı-ayrı şəxslərdən, həm də müxtəlif cəmiyyətlərdən çoxlu təbrik məktubları və teleqramları daxil olmuşdur.

Bu Qurultay Azərbaycan maarifçiliyi tarixində bir ilk idi. İrəvan, Naxçıvan, Dərbənd, Tiflis və Bakının müxtəlif məktəblərində çalışan Azərbaycan dili və şəriət müəllimləri ilk dəfə idi ki, bir məkanda toplaşırdı.

Qafqazın müxtəlif bölgələrindən seçilmiş Azərbaycan dili və şəriət müəllimlərinin ilk qurultayında əsas məqsəd milli-mənəvi inkişafın konseptual əsaslarını, ana dilli dünyəvi təhsil şəbəkəsinin formalaşdırılmasını, milli pedaqoji kadrların hazırlanmasını, təhsilin məzmununun modernləşdirilməsini, habelə əlifba islahatı və milli dərslik yaradıcılığı kimi strateji məsələlərin müzakirəsi idi.

**Qurultayın gündəliyi**

"Qafqaz müsəlman müəllimləri məclisinin məramnaməsi" (proqramı) ilə bağlı müfəssəl məlumat "Dəbistan" jurnalında ("Dəbistan",№ 8) dərc olunmuşdur. Jurnalın həmin sayında oxuyuruq:

"1) Qafqaz müsəlman müəllimləri məclisi (syezdi) bu il Bakıda avqust ayının 15-dən başlanıb axırına qədər davam edəcəkdir.

2) Məclisə dəvət olunur: Qafqaz qitəsindən cəmi şəhər və kənd müsəlman müəllimləri (elmi-ilahi müəllimləri dəxi buraya daxildirlər), həmçinin o şəxslər ki, təlim və tərbiyəyə məhəbbətləri vardır, onlar da məclisə dəvət olunurlar.

**II hissə**

*Məclisin gündəliyi*

1. Hal-hazırda bulunan proqramları nəzərdən keçirib təqazayi-zəmanəyə görə təzədən proqram tərtib etmək;
2. Təzə tərtib olunan proqrama müvafiq kitablar təyin və təlif etmək (bu niyyətlə müəllimlər komissiyası məclisdən müqəddəm islam mərkəzlərindən ibtidai məktəblərdə lazım olan kitabları yazdırıb gətirdəcəkdir);
3. Oxumaq və yazmaq üsulunu asanlaşdırmaq üçün ümumi bir üsuli-tədris və təlim əxz etmək (qəbul etmək);
4. Kənd müəllimlərinin əhvali-məişət və güzəranlarına dair məsələlərə baxmaq;
5. Darülmüəlliminin proqramını müzakirə edib hal və zamanın təqazasına görə dəyişilməsini tələb etmək;
6. Üzvlər tərəfindən təqdim olunan məsələləri həll etmək.

Qeyddə fəqir və biciz müəllimlərin yol xərcinə mümkün qədər köməkliyin göstərəcəyi bildirilir. Proqramda iştirak etmək istəyənlərin aşağıdakı ünvana müraciət etmələri xahiş edilir:

1. Bakı şəhərində "Həyat" idarəsində Nəriman Nərimanov;
2. Bakı şəhərində "Kaspi" idarəsində Həsən bəy Məlikov;
3. Bakı şəhərində "İrşad" idarəsində Fərhad Ağayev.

Qafqazdakı Azərbaycan müəllimlərinin ilk qurultayının yüksək səviyyədə təşkili üçün müəyyən səlahiyyətlərə malik xüsusi komissiya yaradılmışdı. Komissiyanın tərkibinə Nəriman Nərimanov (sədr), Həsən bəy Məlikov (üzv), Həbub bəy Mahmudbəyov (üzv), Fərhad Ağayev (üzv), Yusif Əfəndiyev (katib) kimi dövrünün tanınmış ziyalıları, ictimai xadimləri və müəllimləri daxil edilmişdi.

Arxiv sənədlərinə və dövri mətbuat materiallarına əsasən, bu komissiyanın qarşısında qoyulan əsas vəzifələri aşağıdakı kimi müəyyənləşdirə bilərik:

- Qurultayın keçiriləcəyi məkanın seçilməsi, iclas salonunun texniki və maddi təminatı.
- Bölgələrdən və qonşu quberniyalardan gələcək nümayəndələrin, eləcə də dəvət olunacaq nüfuzlu qonaqların siyahısının dəqiqləşdirilməsi.
- Qurultayda müzakirə olunacaq məsələlərin - ana dilində tədris, yeni üsuli-cədid məktəblərinin açılması, dərsliklərin hazırlanması və müəllimlərin hüquqi-iqtisadi vəziyyətinin tənzimlənməsi kimi vacib problemlərin müəyyənləşdirilməsi.
- Digər bölgələrdən gələn müəllimlərin yol, yaşayış və digər maddi tələbatlarının ödənilməsi, onların yerləşdirilməsi işinin tənzimlənməsi.
- Qurultayın elanı, gedişatı və qəbul olunacaq qərarlar barədə dövri mətbuatda məlumatların verilməsi, ictimaiyyətin maarifləndirilməsi.

**Müqəddəs kəlamlar və xeyir-dua ilə başlayan yol**

Qurultayın təntənəli açılışı dövrün tanınmış din xadimi, I rus-Azərbaycan məktəbinin nüfuzlu şəriət müəllimi Axund Molla Ruhulla Məmmədzadənin (1850-1912) təsirli nitqi ilə başladı. Molla Ruhulla alovlu çıxışında İslam peyğəmbərinin elm öyrənmək, savadlanmaq və bilik sahibi olmaq haqqında mübarək kəlamlarını xatırlatdı. O, elmin, maarifin xalqın nicatındakı əvəzsiz rolu haqqında danışaraq Qurandan elmə və idraka dəvət edən ayələr oxudu. Molla Ruhulla maarif cəbhəsində çiyin-çiyinə dayanan müsəlman müəllimlərinin bu tarixi birliyini, onların milli ittifaqını yüksək qiymətləndirdi. O, bu möhtəşəm toplantının millətin gələcək taleyində dönüş nöqtəsi olacağına böyük ümid bəslədiyini bildirərək qurultayın işinə xeyir-dua verdi.

Sonra H.Zərdabi, N.Nərimanov və başqaları nitq söyləmişlər. Qurultaya hazırlıq komissiyası (sədri N.Nərimanov) qurultayın hazırlığı, məqsədi, Təşkilat Komitəsinin iclasları, qəbul olunan qərarlar haqqında geniş məruzə etdi.

Qurultayın sədrliyinə H.Zərdabi, onun müavinliyinə N.Nərimanov, ona köməkçi kimi S.Acalov, katibliyə isə F.Ağayev seçildi. 13 gün müddətində (avqustun 15-dən 28-nə kimi) qurultayın gündə iki iclası keçirilmişdir.

**Müəllimlərin maddi və mənəvi ehtiyacları**

Qurultayın ilk iclasında ibtidai məktəb proqramları ilə bağlı üç komissiya təşkil olundu. İkinci iclasda Krım müəllimlər qurultayında nümayəndə kimi iştirak etmiş A.Əfəndizadənin məlumatı dinlənildi. Üçüncü iclasda (avqustun 17-də) yeddi məsələ müzakirə olundu ki, bunlar da xarici ölkələrə təhsil almaq üçün tələbələrin göndərilməsini, orta məktəbin açılmasını, dil məsələlərini və s. əhatə edirdi.Qurultayın müzakirə etdiyi məsələlər içərisində müəllimlərin sosial vəziyyəti ilə bağlı Fərhad Ağayevin məruzəsi ciddi müzakirələrə səbəb oldu. O, "Kənd şkola müəllimlərinin ehtiyacları" mövzusunda etdiyi məruzədə müəllimlərin ehtiyaclarını iki yerə ayırırdı: 1) müəllimlərin maddi ehtiyacı; 2) müəllimlərin mənəvi ehtiyacı.

O, müəllimlərin sosial vəziyyətinin ağırlığından, maddi ehtiyaclarının çoxluğundan, əməkhaqqının həddən artıq az olmasından, güclə yaşamalarından danışaraq qeyd edirdi ki, müəllimlər onlara verilən az maaşlarını da vaxtlı-vaxtında ala bilmirlər. Bəzən maaş almaq üçün 180 km yol gedirlər. Aldıqları 30 manat isə onların dörd günlük yol xərcini ödəmir. Zəngəzur qəzasının məktəblərinin adını çəkərək qeyd edirdi ki, oradakı məktəblərlə xəzinənin arası 180 verstdir. Müəllimlərin tez-tez xəstələnməsinin və bir çoxlarının vərəm xəstəliyinə tutulmasının səbəbini Fərhad Ağayev onların mənzil şəraitinin dözülməz olması ilə əlaqələndirirdi.



Qurultayda müəllimlərin maddi ehtiyacları ilə bağlı aşağıdakı məsələlər müzakirə predmetinə çevrilmişdi:1) bəzi kəndlərdə məktəblər açılsa da oraya ana dilini bilməyən müəllimlərin göndərilməsi; 2) müəllimlərin əməkhaqqının ölkədə əmələ gələn bahalığa uyğun gəlməməsi; 3) məktəb vergisi yığılması ilə bağlı dövlət təhsil siyasətinin millətin mənafeyinə uyğun gəlməməsi; 4) məktəb üçün yığılan "adı var, özü yox" pulların kilsə tikməyə, faydasız məmurlara, polis işçilərinə xərclənməsi; 5) yerli əhalidən zorla əhdnamələrin alınması, onların hesabına məktəb binalarının tikilməsi, həmin məktəblərdən əhalinin faydalana bilməməsi, müəllimlərin halının gündən-günə ağırlaşması; 6) ruslaşdırma, xristianlaşdırma siyasətinə uyğun olaraq dövlət məktəblərinə rusların təyin edilməsi, azərbaycanlı müəllimlərin başqa xalqlardan olan müəllimlərə nisbətən hüquqlarının daha çox tapdanması; 7) bəzi məktəblərin qəza və şəhər xəzinəsindən uzaqda yerləşməsi.



Fərhad Ağayevin məruzəsində və ayrı-ayrı çıxışlarda müəllimlərin mənəvi ehtiyaclarının aşağıdakı məqamlarına toxunulmuşdur:1) müəllimlərin ana dilini bilməməsi; 2) müəllimlərin siyasi hadisələrdən xəbərsizliyi; 3) müəllimlər üçün zəruri olan kitabların olmaması; 4) kitabxanaların əhalinin mənəvi inkişafına ciddi ziyan vuran kitablarla doldurulması; 5) Azərbaycan mədəniyyəti ilə müəyyən əlaqəsi olan Şərq dillərində nəşr olunmuş kitabların kitabxanalara yaxın qoyulmaması, ruhanilərin müəllimlərə ciddi təzyiq göstərmələri, poçtxanaların pis işləməsi və s.

Bu kimi şərtlər müəllimlərin mənəvi ehtiyacını ağırlaşdıran başlıca amillər idi. Ruslaşdırma siyasətini həyata keçirən çarizmin ucqarlarda yaratdığı mənəvi mühit xalqın istək və arzularına, maariflənmək, tərəqqi etmək ideyalarına uyğun gəlmirdi. Xalqın geniş şəkildə təhsillə əhatə olunmasından çar hökuməti qorxurdu. Rusiyada baş verən ictimai-siyasi hadisələr ucqarlarda analoji olaraq təkrarlanırdı. Müəllimlərin maddi və mənəvi ehtiyaclarını hərtərəfli müzakirə edən qurultay maarif məsələlərinin bütün ixtiyarını hökumətdən alıb yerli əhalinin ixtiyarına verilməsi qərarına gəldi. Qurultayda müəllimlərin ana dilini bilməməsi onların mənəvi yoxsulluğunun ilkin şərti kimi dəyərləndirildi.

**Ana dilinin tədrisi**

Qurultayın 20 avqust 1906-cı ildə keçirilən iclasında ana dili məsələləri ilə bağlı F.Köçərli məlumat verdi. O, çıxışında Qori Seminariyasının azərbaycanlı müəllim kadrları hazırlığında fəaliyyətindən və bu sahədə A.O.Çernyayevskinin xidmətlərindən danışdı. Azərbaycan dili təlimi məsələsindən danışarkən qeyd etdi ki, əvvəllər seminariyada Azərbaycan dili həftədə 10 saat, sonra isə 8 saat olmuşdur. O, məktəblərdə ana dili fənninin ağır vəziyyətdə olmasının səbəblərini aşağıdakı kimi qruplaşdırırdı: 1) ana dili dərslərinə verilən vaxtın azlığı; 2) Azərbaycan dilinin məcburi bir fənn olmaması; 3) ümumi bir Azərbaycan dilinə riayət edilməməsi; 4) Azərbaycan dilinə məktəb müdirlərinin etinasız yanaşmaları; 5) şagirdlərin Azərbaycan dilinə az əhəmiyyət verməələri; 6) bəzi valideynlərin Azərbaycan dilinə həqarətlə baxmaları.

Bu nöqsanları aradan qaldırmaq üçün qurultay aşağıdakı tədbirlərin həyata keçməsini zəruri və vacib hesab edirdi:a) Azərbaycan dili fənnini tədris edən müəllimlərin hüquqlarını digər fənn müəllimlərinin hüquqları ilə eyniləşdirmək; b) Azərbaycan dili dərslərinin məktəbdə məcburi fənn kimi keçirilməsinə nail olmaq; c) Azərbaycan dili dərslərinin həftəlik saatını artırmaq; d) Azərbaycan dili müəllimlərinin məktəbə təyinində və azad olunmasında camaatın fikrini nəzərə almaq.

Qurultayın ilk iclasında Azərbaycan dili fənninin proqramını müzakirə etmək üçün Abdulla Şaiqin, Süleyman Sani Axundovun, Həsən bəy Məlikovun və bir neçə müəllimin daxil olduğu xüsusi komissiya yaradılmışdı.

**"Azərbaycan dili"nin proqramı**

Qurultayın 21 avqust 1906-cı il tarixli iclasında həmin komissiya tərəfindən tərtib olunmuş "Azərbaycan dilinin proqramı" oxundu və uzun-uzadı müzakirə olundu. Bəzi düzəlişlərdən sonra həmin proqram qəbul olundu. Proqramda diqqəti cəlb edən məsələlərdən biri bütün siniflər üzrə yazı işlərinin müxtəlif növlərinin göstərilməsi idi. Məlumdur ki, köhnə məktəblərdə demək olar ki, yeganə yazı növü kitabın üzündən mexaniki köçürmə idi. Qurultayın qəbul etdiyi proqramda üzündən köçürmə, sual-cavab, imla, əzbər yazı, müxtəlif məzmunlu məktublar, şəkillər, lövhələr üzrə təsviri yazılar, sərbəst mövzuda yazılar, inşa və s. qəbul olundu. Dördüncü sinfin proqramında ölkəşünaslıq materiallarına daha geniş yer verilmişdi. Şagirdlərin Azərbaycanın və eyni zamanda Qafqazın coğrafiyası və etnoqrafiyası, tarixi və ədəbiyyatına dair ətraflı məlumat alması nəzərə alınmışdı.

Qurultayın həmin iclasında Dağıstandan göndərilmiş xüsusi məktub da müzakirə olundu. Həmin məktubda Teymurxan Şurada açılan məktəbdə işləmək üçün bir nəfər Azərbaycan dili müəllimi göndərmək qurultaydan xahiş olunurdu. Qurultay iştirakçıları bu məsələni müzakirə etsələr də, oraya göndərməyə münasib bir adam tapa bilmədilər.

Qurultayda ibtidai məktəblərdə Azərbaycan dilinin tədrisi ilə də bağlı geniş müzakirə aparıldı. Bu məktəblərdə ana dilinə verilən saatlar çox az idi, V sinifdən yuxarı isə bu fənn, ümumiyyətlə, keçilmirdi. Digər tərəfdən bu məktəblərdə ana dili məcburi fənn olmadığından, həmin fənlər cədvələ daxil edilmirdi.

Ona görə də tərəqqipərvər ziyalılar Azərbaycan dili fənnindən proqram tərtib edərək onu təsdiq üçün QTD-yə təqdim etməyi, bu fənni məcburi fənlər sırasına daxil etməyi və Azərbaycan dili müəllimlərinin hüquqlarını başqa fənn müəllimləri ilə bərabərləşdirməyi qərara aldılar.

Qurultayın 24 avqust 1906-cı il tarixli iclasında komissiya tərəfindən tərtib olunmuş Azərbaycan dili proqramı müzakirə edildi. Tədris planında ana dilinə aşağıdakı saatların verilməsi nəzərdə tutuldu: a) I sinifdə həftədə - 8 saat; b) II sinifdə həftədə - 6 saat; c) III sinifdə həftədə - 6 saat; d) IV sinifdə həftədə - 5 saat. Edadiyyə məktəbinin tədris planı aşağıdakı kimi təsdiq olunmuşdu: a) ehtiyat sinifdə həftədə - 5 saat; b) I, II və III siniflərdə həftədə - 4 saat; c) IV, V və VI siniflərdə həftədə - 3 saat; d) VII və VIII siniflərdə həftədə - 2 saat.

25 avqust 1906-cı ildə qurultayın iclasında 14 maddədən ibarət ana dili üzrə proqram tərtib etmək və müəllimlərə metodiki yardım göstərmək üçün məlumat hazırlandı. VI və VII siniflər üçün tərtib olunmuş "Azərbaycan dili" proqramı müzakirə edilərək qəbul olundu.

**"Lal metod" və onun fəsadları**

Qurultayda müzakirə predmetinə çevrilən məsələlərdən biri də "lal metod" deyilən bir üsulun məktəblərdə tətbiqinin aradan götürülməsi məsələsi idi. Bu üsul həm Azərbaycan uşaqlarına, həm də rus dilini tədris edən Azərbaycan müəllimlərinə çox çətinliklər törədirdi. Gəncə xalq məktəbləri direktoru F.Z.Levitskinin qızğınlıqla müdafiə etdiyi, onun yayılması üçün "açıq dərs"lər keçirdiyi bu üsul milli məktəblər üçün tamam yararsız idi. Bu üsulun mahiyyəti ondan ibarət idi ki, rus dilini tədris edərkən ana dilində izahat vermək olmazdı. Müəllim şagirdlərə sözün və ya cümlənin mənasını öz hərəkətləri ilə başa salmalı idi. Bu üsul təlimin ana dilində aparılmasına əsaslı mane olurdu. Ona görə də dövrün qabaqcıl müəllimləri, görkəmli maarifpərvərlər "lal üsul"un ("təbii üsul"un) təlim prosesində heç nəyə yaramadığını mətbuatda kəskin tənqid edir, onun aradan götürülməsini tələb edirlər. Bu məsələ qurultayda ciddi müzakirəyə səbəb oldu. İştirakçılar N.Nərimanovun fikrini dəstəklədiklərindən bu da böyük xeyriyyəçi və mesenat H.Z.Tağıyevlə N.Nərimanov arasında anlaşılmazlığa səbəb olmuşdu.

**QMS-nın Azərbaycan şöbəsinin köçürülməsi**

Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müsəlman şəhərlərindən birinə köçürülməsi, həmin şöbənin müəllimlər seminariyasına çevrilməsi, müsəlman müəllimləri üçün pedaqoji kursların təşkil edilməsi və b. məsələlər canişinlik qarşısında qaldırıldı. Lakin bu məsələlər təsdiq edilməmiş qaldı. Bir faktı da xüsusi olaraq qeyd etmək lazımdır ki, qurultayda müəllim, onun hazırlığı, ixtisasının artırılması ilə bağlı ciddi müzakirələr getsə də nəticə o qədər də ciddi olmadı. Bunun başlıca səbəbi ondan ibarət idi ki, qurultay iştirakçıları müəllimlərin maddi vəziyyətinin ağırlığının əsas səbəbinin müəyyənləşdirilməsində vahid fikrə gələ bilmədilər. Bəziləri müəllim hazırlayan seminariyaları, bəziləri müəllimlərin özlərini, bəziləri valideynləri, bəziləri də dövləti müqəssir bilirdilər.

Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin köçürülməsi məsələsi qurultaya qədər bir neçə dəfə müzakirə obyektinə çevrilmişdi. QMS-nin pedaqoji şurasında da bu məsələyə dair müzakirələr keçirilmişdi. Şuranın üzvləri başda D.Semyonov və A.O.Çernyayevski olmaqla iki cəbhəyə bölünmüşdülər. D.Semyonov öz tərəfdarları ilə birlikdə şöbənin Qoridə qalmasını, A.O.Çernyayevski və onun həmkarları (A.Axundzadə, H.-Qayıbov, S.Vəlibəyov və b.) isə şöbənin Azərbaycan şəhərlərindən birinə köçürülməsi və müstəqil seminariyaya çevrilməsi fikrini müdafiə edirdilər. Çar maarif məmurları, əvvəlcə D.Semyonov, sonra S.N.Seretelski, daha sonra M.Miropiyev azərbaycanlı ziyalıların haqq səsini eşitmədilər. Seminariyanın Azərbaycan şöbəsinin müsəlman şəhərlərindən birinə köçürülməsinə hər vəchlə mane oldular.

Qeyd etmək lazımdır ki, Qori Müəllimlər Seminariyasının tatar (Azərbaycan) şöbəsinin Zaqafqaziyanın müsəlman şəhərlərinin birinə köçürülməsi ilə bağlı müsəlman xeyriyyə cəmiyyətlərinin fəal üzvləri, Azərbaycan ziyalıları Qafqaz canişininə dəfələrlə müraciət etmişdilər.

1906-cı il may ayının 18-də Şuşa müsəlman xeyriyyə cəmiyyəti tərəfindən Nəcəfqulu ağa Cavanşirovun rəhbərliyi ilə ziyalılar Qafqaz canişininə seminariyanın Azərbaycan şöbəsinin Şuşa şəhərinə, Nuxa (Şəki) ziyalıları isə Nuxa şəhərinə köçürülməsini xahiş edirdilər. Hələ ondan bir il əvvəl 1905-ci il dekabrın 25-də Qori Müəllimlər Seminariyasının tələbəsi Xudad İsabəyov seminariyanın Azərbaycandan uzaqda yerləşməsini, oraya gedib-gəlməyin çətin olmasını əsas tutaraq şöbənin Qutqaşen (indiki Qəbələ) şəhərinə köçürülməsi məqsədilə Qafqaz canişinliyinə müraciət etmişdi. Lakin bu təşəbbüslərin heç biri həyata keçmədi, Azərbaycan ziyalılarının arzuları reallaşmadı. Qafqaz canişini bu müraciət və xahişnamələri rədd etdi.

Beləliklə, A.Çernyayevskinin başçılığı ilə azərbaycanlı ziyalıların Azərbaycan şöbəsini müstəqil müəllimlər seminariyasına çevirmək mümkün olmadı. Bu ideyanı yalnız ADR dövründə reallaşdırmaq mümkün oldu.

Avqustun 19-da keçirilən iclasda Sultan Məcid Qənizadə Qori Müəllimlər Seminariyasının müəllim kadrları hazırlığındakı xidmətlərindən danışaraq, oranı yenicə bitirmiş gənc müəllimlərin öz nəzəri və praktik hazırlığını artırmaq üçün onlara lazım olan vəsaitin ayrılmasının zəruriliyini bildirmişdi. Mənbələrdə göstərilir ki, bir müəllimin xərcini Ə.Həsənzadə, Q.Qarabəyov, iki müəllimin xərcini Bakı şəhər müəllimləri öz üzərlərinə götürdülər. Digər iki müəllimin xərcini isə "Nicat" xeyriyyə cəmiyyətinin teatr tamaşalarından gələn vəsait hesabına ödəmək nəzərdə tutuldu. Gənc müəllim Abbasbəy Minasazovun xərcini Həbib bəy Mahmudbəyov öz üzərinə götürdü.

**Müəllimlər ittifaqının yaradılması zərurəti**

Qurultayda yaşlılar üçün rus-Azərbaycan məktəbləri yanında axşam məktəblərinin açılması, müəllimlər ittifaqının yaradılması məsələsi müzakirə edildi. Qurultay iştirakçılarından bir qrupu hər bir quberniyada xüsusi bir ittifaqın təşkilini məsləhət bilirdi. Ayrı-ayrı quberniyalarda yaranacaq müəllimlər ittifaqı oradakı müəllimlərin və məktəblərin problemlərini müzakirə edə bilərdi. Ortaya çıxa biləcək mübahisəli məsələlər isə ildə bir dəfə çağırılan ümumi Qafqaz müəllimlər qurultayında həll olunmalı idi. Burada qəbul olunmuş qanunlar isə bütün müəllimlər ittifaqı üçün rəhbər sənəd hesab edilməli idi.

Qurultay iştirakçılarının belə bir təşəbbüslə çıxış etmələri müəllimlər üçün böyük əhəmiyyət kəsb edirdi. Belə bir ittifaq müəllimlərin hüquqlarını müdafiə edə bilər, onların siyasi fəallığını artırar, ixtisaslarının təkmilləşməsinə, məktəblərdə təlim-tərbiyə işlərinin yaxşılaşmasına əsaslı təsir göstərə bilərdi.

**Qurultayın yekun tələbləri və tarixi əhəmiyyəti**

Azərbaycan müəllimlərinin I qurultayında yaradılan komissiya tərəfindən canişinlik qarşısında 6 maddədən ibarət aşağıdakı məsələlər qaldırıldı: 1) Qori Müəllimlər Seminariyasının tatar (Azərbaycan) şöbəsini müsəlman mərkəzlərindən birinə köçürmək; 2) həmin şöbəni müəllimlər seminariyasına çevirmək; 3) həmin seminariyada Azərbaycan dilini əsas fənn kimi tədris etmək; 4) müsəlman müəllimlərinin hüququnu başqa müəllimlərin hüququ ilə bərabər tutmaq; 5) hər şəhərdə qız rus-tatar məktəbi açmaq; 6) müsəlman müəllimləri üçün pedaqoji kurslar təşkil etmək.

Qaldırılan bu məsələlərin heç birini həyata keçirmək mümkün olmadı. I qurultayda qaldırılan məsələlər 1907-ci ildə çağırılan II qurultayda da müzakirə predmetinə çevrildi və az sonra çox böyük əməli işlər görüldü.

## Qurultaydan qurultaya

Azərbaycan müəllimlərinin ilk qurultaylarında milli maarifimizin əsas problemləri, ana dilinin tədrisi, müəllimlərin maddi və mənəvi ehtiyacları ilə yanaşı, müzakirə olunan ən mühüm və vacib məsələlərdən biri də əlifba məsələsi idi. Dövrün qabaqcıl ziyalıları latın qrafikalı yeni əlifbaya keçidin zəruriliyini dəfələrlə dilə gətirsələr də, çarizm rejiminin sərt maneələri və dövrün ictimai-siyasi şəraiti əlifba dəyişikliyinə imkan vermədi. Lakin maarifpərvərlərin ideyaları hədər getmədi. Azərbaycan müəllimlərinin I qurultayında əsası qoyulan, nəsillərin yaddaşında milli oyanış və intibah mübarizəsi kimi yaşayan bu ideya tədricən cücərərək xalqımızın mədəni tərəqqi və azadlıq salnaməsinin əsas təməlinə çevrildi və Birinci Ümumittifaq Türkoloji Qurultayda reallaşdırıldı.

**Fərrux RÜSTƏMOV,**
**ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının müdiri,**
**pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi**

# REGİONDA ALİ TƏHSİL

# Torpaqdan biliyə, bilikdən inkişafa

**Qubada aqronom kadrların hazırlanmasına başlanılması sadəcə ali təhsil sisteminə yeni bir ixtisasın əlavə edilməsi deyil. Bu addım regionun iqtisadi ixtisaslaşması ilə ali təhsilin məzmununu yaxınlaşdıran, elm-təhsil-istehsal əlaqəsini gücləndirən və Qubanın aqrar potensialını insan kapitalına çevirməyə xidmət edən strateji təşəbbüsdür.**

## “Aqronomluq” ixtisası Qubanın yeni inkişaf modelində



### Qubanın aqrar iqtisadiyyatı: rəqəmlər və yeni çağırış

Quba tarixən Azərbaycanın aparıcı meyvəçilik rayonlarından biri kimi tanınır. Lakin XXI əsrin kənd təsərrüfatında təbii imkanların mövcudluğu artıq özlüyündə rəqabət üstünlüyü yaratmır. Müasir aqrar istehsal elmi bilik, düzgün sort seçimi, torpaq və su analizi, səmərəli suvarma, bitki mühafizəsi, rəqəmsal monitorinq, məhsulun saxlanması və peşəkar idarəetmə tələb edir. Bu baxımdan aqronomluq ixtisasının Qubada açılması təhsillə iqtisadiyyatın bir-birinə yaxınlaşmasının mühüm nümunəsidir.

Dövlət Statistika Komitəsinin Quba rayonu üzrə göstəricilərinə əsasən, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunda ümumi buraxılış 2023-cü ildə təxminən 274,2 milyon manat, 2024-cü ildə isə 293 milyon manat təşkil edib. Bir il ərzində təxminən 18,8 milyon manatlıq artım Qubada aqrar sektorun yalnız tarixi ənənə deyil, həm də müasir regional iqtisadiyyatın əsas dayaqlarından biri olduğunu göstərir.

2025-ci ilin nəticələri də texnoloji yenilənmənin miqyasını aydın göstərir. Quba Dövlət Aqrar İnkişaf Mərkəzinin mediada yayılan məlumatlarına görə, rayonda 105 min ton alma istehsal olunub. Alma bağlarının sahəsi 7061 hektar, intensiv və superintensiv bağların sahəsi isə 2700 hektara yaxınlaşıb. Toplanan alma məhsulunun 70-75 faizinin müasir tipli bağlardan əldə olunması xüsusilə diqqətəlayiqdir. Ənənəvi bağlarda hektardan 20-25 ton məhsul götürüldüyü halda, müasir bağlarda bu göstərici 50-60 tonu keçir. Bu fərq göstərir ki, aqrar artımın əsas mənbəyi bundan sonra təkcə əkin sahəsinin genişlənməsi deyil, hər hektarın elmi və texnoloji səmərəliliyinin yüksəldilməsi olmalıdır.

Müasir təsərrüfat eyni zamanda yeni risklər də yaradır. İqlim dəyişmələri, su ehtiyatlarının səmərəli idarə olunması, invaziv zərərvericilər və bitki xəstəlikləri aqronomun funksiyasını əvvəlkindən daha mürəkkəb edir. Bu gün aqronom yalnız becərmə qaydalarını bilən mütəxəssis deyil; o, torpaq analizindən bitki fiziologiyasına, fitosanitar monitorinqdən məhsuldarlığın proqnozlaşdırılmasına qədər bütöv istehsal prosesini elmi əsaslarla idarə etməyi bacarmalıdır. Quba kimi intensiv meyvəçilik regionunda belə mütəxəssislərə ehtiyacın artması təbii və obyektiv prosesdir.

### “Aqronomluq” ixtisası - əmək bazarının ali təhsilə sifarişi

ADPU-nun Quba filialında yeni tədris ilindən Aqronomluq ixtisası üzrə 20 plan yerinin ayrılması təsadüfi qərar deyil. Bu addım Quba-Xaçmaz regionunun aqrar potensialından, intensiv meyvəçiliyin, aqroparkların və emal müəssisələrinin inkişafından, eləcə də müasir aqrar biliklərə yiyələnmiş mütəxəssislərə yaranan real tələbatdan irəli gəlir. Quba Rayon İcra Hakimiyyətinin təşəbbüsü və dəstəyi ilə reallaşdırılan bu mühüm layihə regionun öz kadr potensialını formalaşdırması və aqrar iqtisadiyyatın elmi əsaslarla gücləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır.

Bu prosesdə ADPU rəhbərliyinin regionlarda fəaliyyət göstərən filialların inkişafına yanaşması da xüsusi əhəmiyyət kəsb edir. Filialların yalnız mərkəzi universitetin tədris proqramlarını həyata keçirən struktur bölmələr kimi deyil, yerləşdikləri bölgələrin sosial-iqtisadi inkişafına, əmək bazarının tələblərinə və yerli kadr ehtiyaclarına cavab verən regional ali təhsil və intellektual inkişaf mərkəzləri kimi formalaşdırılması ali təhsilin yeni missiyasını ifadə edir. Belə yanaşma ixtisas portfelinin yerli ehtiyaclar əsasında yenilənməsinə, region üçün vacib mütəxəssislərin elə həmin regionda hazırlanmasına və ali təhsilin sosial-iqtisadi inkişafla daha sıx əlaqələndirilməsinə imkan verir.

Bu yanaşma filialda son illərdə keyfiyyət təminatı, institusional idarəetmə, cəmiyyətə xidmət və sosial məsuliyyət istiqamətində aparılan işlərlə də uzlaşır. Yeni ixtisasın dayanıqlı nəticə verməsi üçün tədris proqramı, laboratoriya imkanları, istehsalat təcrübəsi, elmi tədqiqat və işəgötürənlərlə əməkdaşlıq vahid sistem kimi qurulmalıdır. Belə olduqda ali məktəb sadəcə məzun hazırlayan müəssisə deyil, regionun inkişaf prioritetlərini insan kapitalı ilə təmin edən strateji tərəfdaşa çevrilir.

Müasir regional universitetin əsas sualı “hansı ixtisası tədris edirik?” deyil, “region hansı mütəxəssisə ehtiyac duyur və universitet bu ehtiyaca necə cavab verir?” olmalıdır. Aqronomluğun Qubada açılması məhz bu yanaşmanın praktik nümunəsidir. Quba Rayon İcra Hakimiyyətinin təşəbbüsü, ADPU rəhbərliyinin institusional dəstəyi və filialın regionun real iqtisadi ehtiyaclarını təhsil strategiyasına çevirməsi burada bir-birini tamamlayan amillərdir.

### Elm, təhsil və istehsal eyni məkanda

Yeni ixtisasın üstünlüklərindən biri Qubanın özünün böyük bir “açıq aqrar laboratoriya” olmasıdır. Alma və digər meyvə bağları, müxtəlif torpaq və iqlim şəraiti, intensiv və ənənəvi təsərrüfat modelləri, fermer təsərrüfatları, emal müəssisələri və Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu eyni regionda cəmləşib. ADPU-nun Quba filialı ilə institut arasında əməkdaşlığın genişləndirilməsi tələbələrin nəzəri biliklərini laboratoriya və istehsalat təcrübəsi ilə birləşdirmək üçün ciddi imkan yaradır.

Bu əməkdaşlığın əsas üstünlüyü təhsilin real problem üzərində qurulmasıdır. Tələbə auditoriyada öyrəndiyi nəzəri bilikləri sahədə müşahidə etməli, elmi-tədqiqat institutunun laboratoriya və informasiya resurslarından yararlanmalı, fermer təsərrüfatlarında istehsal prosesini izləməli və konkret aqrotexniki problemlərin həllinə cəlb olunmalıdır. Bu model həm tələbənin peşə hazırlığını yüksəldir, həm də universitetin region üçün tətbiqi elmi nəticə yaratmaq imkanını genişləndirir.

Bu modeldə tələbə torpaqşünaslığı yalnız auditoriyada öyrənməməli, yerli torpaq nümunələri üzərində işləməli; bitki mühafizəsini real xəstəlik və zərərvericilər üzərində müşahidə etməli; suvarma rejimlərini, məhsuldarlıq məlumatlarını və istehsal xərclərini təsərrüfat şəraitində təhlil etməlidir. Dəqiq əkinçilik, coğrafi informasiya sistemləri, məsafədən zondlama, dron texnologiyaları, aqrometeorologiya, fitosanitar monitorinq, məhsul yığımından sonrakı texnologiyalar və aqrar sahibkarlıq kimi istiqamətlərin klassik aqronomluq bilikləri ilə birləşdirilməsi gələcəyin mütəxəssisini formalaşdıracaq.

### Elm və təhsilə dövlət dəstəyi

Qubada baş verən bu proses ölkədə həyata keçirilən ümumi aqrar siyasətin regional ifadəsi kimi də qiymətləndirilə bilər. Prezident İlham Əliyevin 25 may 2026-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı”nda rəqabətqabiliyyətliliyin artırılması, yüksək əlavə dəyər yaradan intensiv təsərrüfatçılığın genişləndirilməsi və ərzaq təhlükəsizliyinin gücləndirilməsi əsas istiqamətlər kimi müəyyənləşdirilib. Bu siyasətin mahiyyəti daha çox məhsul istehsal etməklə yanaşı, torpaq, su, texnologiya və insan resursundan daha səmərəli istifadə etməkdir.

Kənd Təsərrüfatı Nazirliyinin subsidiya və texnoloji dəstək mexanizmlərində intensiv bağçılığın, sertifikatlı tinglərin, müasir suvarma sistemlərinin və innovativ yanaşmaların təşviqi aqrar istehsalın keyfiyyətcə yenilənməsinə xidmət edir. Elm və Təhsil Nazirliyinin insan kapitalının inkişafına yönəlmiş siyasəti isə bu texnoloji yenilənmənin kadr təminatını gücləndirir. Məktəb səviyyəsində peşə təmayüllü siniflərdə aqronom profilinin mövcudluğu, ali təhsildə aqrar istiqamətlər üzrə müasir proqramların və beynəlxalq əməkdaşlığın genişlənməsi elm-təhsil-istehsal zəncirinin formalaşdığını göstərir.

Bu siyasətlərin bir nöqtədə birləşməsi mühüm prinsipial nəticə doğurur: dövlət aqrar istehsal üçün texnologiya və maliyyə imkanlarını genişləndirirsə, təhsil sistemi həmin imkanlardan səmərəli istifadə edə biləcək mütəxəssisi hazırlamalıdır. Müasir suvarma sistemi, məhsuldar sort və ya rəqəmsal müşahidə vasitəsi yalnız elmi əsaslandırılmış tətbiq zamanı yüksək nəticə verir. Buna görə aqrar siyasətlə elm və təhsil siyasətinin əlaqələndirilməsi kənd təsərrüfatında dayanıqlı inkişafın əsas şərtlərindən biridir.

Regional səviyyədə də bu xətt tamamlanır. Quba Rayon İcra Hakimiyyətinin aqrar sahədə dövlət dəstək mexanizmlərinin fermerlərlə müzakirəsinə, innovasiya və kadr hazırlığı məsələlərinə verdiyi diqqət, eləcə də Aqronomluq ixtisasının yaradılmasına göstərdiyi dəstək regionun iqtisadi potensialına yalnız cari istehsal göstəriciləri ilə deyil, uzunmüddətli insan kapitalı baxımından yanaşıldığını göstərir.

### Quba aqrar bilik mərkəzinə çevrilə bilər

“Aqronomluq” ixtisasının uğuru yalnız qəbul planının dolması ilə ölçülməməlidir. Əsas nəticə məzunların regionda məşğulluğu, fermer təsərrüfatları ilə əməkdaşlığın genişlənməsi, tələbələrin tətbiqi tədqiqatlara cəlb olunması, məhsuldarlığın və keyfiyyətin yüksəlməsi, su və digər resurslardan daha səmərəli istifadə, xəstəlik və zərərvericilərdən itkilərin azalması kimi göstəricilərdə görünməlidir. Bu baxımdan məzunların məşğulluğunun, təsərrüfatlarla birgə layihələrin, tələbə tədqiqatlarının və texnologiya transferinin sistemli şəkildə izlənməsi yeni proqramın real təsirini qiymətləndirmək üçün vacib olacaq.

Qubanın bunun üçün ciddi üstünlükləri var: böyük istehsal bazası, intensiv bağçılıq təcrübəsi, elmi-tədqiqat institutu, dövlət dəstək mexanizmləri, yerli idarəetmənin aqrar kadr hazırlığına marağı və ADPU-nun Quba filialında yaradılan yeni təhsil platforması. Bu imkanlar vahid sistemdə işlədikdə Quba yalnız yüksək keyfiyyətli meyvə istehsal edən deyil, həm də aqrar bilik, texnologiya və peşəkar mütəxəssis yetişdirən regional mərkəzə çevrilə bilər.



Məhz buna görə “Aqronomluq” ixtisasının yaradılmasına sadəcə yeni qəbul istiqaməti kimi baxmaq düzgün olmazdı. Bu, torpaqla universitet arasında qurulan yeni körpüdür. Bir tərəfində Qubanın bağları, fermeri və istehsalçısı, digər tərəfində elm, laboratoriya, texnologiya və gənc mütəxəssis dayanır. Bu əlaqə dayanıqlı qurularsa, ixtisasın Qubaya ən böyük töhfəsi tonlarla ölçülən məhsuldan da geniş olacaq: regionun öz gələcəyini öz elmi potensialı və öz insan kapitalı ilə qurmaq imkanını gücləndirəcək.

**Yusif ALIYEV,**
**ADPU-nun Quba filialının direktoru, professor**

---

**Mənim üçün “Maarifçi”yə qoşulmaq yeni bir təcrübə qazanmaqdan daha çox özümə fərqli tərəfdən baxmaq imkanı idi. Çünki insan ən çox fərqli insanlarla işləyəndə, yeni mühitə uyğunlaşanda və real proseslərin içində olanda özünü tanımaq fürsəti qazanır və inkişaf edir. “Maarifçi”də məni cəlb edən də məhz bu oldu. Daim inkişaf etməyi sevən biriyəm və düşünürəm ki, belə mühitlər həm peşəkar, həm də şəxsi inkişaf baxımından insana çox şey qazandırır. Buna görə də bu təcrübənin bir parçası olmaq istədim”.**

# “Uğur mükəmməllik deyil, hər gün bir addım öndə olmaqdır”

## Səidənin "Maarifçi" yolu



### Böyük rəqabət mühitində yarışdı, uğur qazanıb 53 “Maarifçi” dən biri oldu

Səidə Allahyarova yüksək rəqabət mühiti olan müsabiqəyə girib və rəqiblərinin çoxunu arxada qoyub. Müraciət edən hər 100 nəfərdən 1-nin seçildiyi müsabiqədə uğur qazanıb 53 “Maarifçi” dən biri oldu: “İmtahan və müsahibə prosesi kifayət qədər həyəcanlı idi. Sevindiricidir ki, uğurlu oldu. Çünki seçim mərhələləri kifayət qədər rəqabətli idi və bu proqramın qalibləri arasında yer aldığım üçün çox şanslıyam. Hazırda fəaliyyətimi Yüksək Texnologiyalar Parkının Təhsil və tədqiqatda innovasiyalar şöbəsində davam etdirirəm”.

### “Maarifçi” proqramının ona daha böyük töhfələri olacağına inanır

Səidə Bakı məktəblisi olub. Sabunçu rayonundakı 69 nömrəli tam orta məktəbin 2021-ci il məzunudur. Sonra tələbə adı qazanıb. Azərbaycan Dillər Universitetinin ingilis dili üzrə “Dil və ədəbiyyat müəllimliyi” ixtisasını fərqlənmə diplomu ilə bitirib. Universitet illərində həm pedaqoji təcrübədə iştirak edib, həm də könüllülük fəaliyyətlərinə qoşulub. “COP 29”, ICPC (Beynəlxalq Universitetlərarası Proqramlaşdırma Müsabiqəsi) tədbirlərində, “AIESEC Azərbaycan”, “Bilim Azərbaycan”-da, DOST Agentliyində könüllülük layihələrində iştirak edib.

“Hər biri mənə fərqli nələrsə öyrədib”, - deyən Səidə Allahyarova “Maarifçi” proqramının daha böyük töhfələri olacağına inanır: “"Maarifçi" proqramı haqqında sosial şəbəkələrdən çox eşitmişdim, amma bu komandanın bir hissəsi olmaq tam başqa hissdir. Proqrama başlayandan bəri hər gün yeni nəsə öyrənirəm. “Maarifçi” sadəcə bir iş mühiti deyil, eyni zamanda böyük bir öyrənmə və bir-birini inkişaf etdirmə platformasıdır. Mənim üçün ən maraqlısı odur ki, hər şey real iş mühitində baş verir. Ümid edirəm ki, 4 aylıq proqram mənim üçün çox faydalı olacaq”.

Təcrübə keçdiyi komanda da ona çox böyük dəstək verir: “Birgə çalışdığım komandanın mənə münasibəti xoş və səmimidir. Gələndən bəri düşünürəm ki, “Maarifçi” proqramının ən böyük gücü onun yaratdığı mühitdir. Eyni dəyərləri, təhsilə və inkişafa olan eyni həvəsi paylaşan gənclərlə və bu sahənin peşəkarları ilə bir arada olmaq insana davamlı motivasiya verir. Peşəsində kifayət qədər uğurlu olan əməkdaşlarla eyni iş mühitini bölüşmək gələcək karyeram üçün böyük töhfədir”.

“Maarifçi”də qazandığımız təcrübə, təkcə texniki bacarıqlarla məhdudlaşmır. Səidənin fikrincə, yumşaq bacarıqlar da bu mühitdə inkişaf edir: “Komandada işləyir, təhsil layihələrinin icrasında yaxından iştirak edir, problemlərə kritik həllər tapmağa çalışırıq. Bu prosesdə yumşaq bacarıqlar çox inkişaf edir. Bu da bizi gələcək karyeramızda hərtərəfli hazır mütəxəssisə çevirir”.

### "Biz də “Maarifçi”yə töhfə qatacağıq"

“Məqsədim sadəcə təcrübə qazanmaq deyil, həm də mənimsədiyim yeni bacarıqlarla proqrama real dəyər qatmaqdır və düşünürəm ki, beləcə, hər məzun öz töhfəsini verəcək”, - deyir. Bu arada təhsilini magistratura səviyyəsində, yenə Azərbaycan Dillər Universitetində davam etdirəcək, bu dəfə “Təhsil menecmenti” ixtisası üzrə: “Bu sahəyə marağım hər zaman böyük olub. Elə “Maarifçi” tələbə-məzun proqramına müraciətim də bu sahəyə marağımla bağlıdır”.

Marağı onu başqa haralara aparacaq, onu zaman göstərəcək. Əsas odur ki, o özünə inanır: “Məncə, insan özünə şans verməlidir. Məqsədə ilk cəhddə çatmaya bilərsən. Əsas odur ki, ilk addımı atasan. Çünki uğur mükəmməl olmaq deyil, hər gün dünənkindən bir addım öndə olmaqdır”.

**Ruhiyyə DAŞSALAHLI**

# Könüllülük tələbələrin karyera imkanlarına necə təsir göstərir?




**Tələbəlik illəri yalnız akademik biliklərin əldə edildiyi dövr deyil, həm də gələcək karyera üçün zəruri bacarıqların formalaşdığı mühüm mərhələdir. Bu baxımdan tələbəlik dövründəki könüllülük fəaliyyəti tələbələrin həm şəxsi, həm də peşəkar inkişafında mühüm rol oynayır.**

Bəs könüllülük təcrübəsi işə qəbul zamanı nə dərəcədə nəzərə alınır və bu fəaliyyət tələbələrin karyera imkanlarına necə təsir göstərir?

Mövzu ilə bağlı "Azərbaycan müəllimi"nə danışan Azərbaycan Könüllü Təşkilatları İttifaqının İctimaiyyətlə əlaqələr üzrə meneceri Turə Rəcəbova bildirib ki, könüllülük fəaliyyəti tələbələrin yalnız asudə vaxtlarını səmərəli keçirməsi deyil, eyni zamanda onların gələcək karyerasına mühüm töhfə verən inkişaf platformasıdır:

"Könüllülük zamanı gənclər komanda ilə işləmək, ünsiyyət qurmaq, məsuliyyət götürmək, vaxtı düzgün idarə etmək, müxtəlif layihələrdə iştirak və real iş mühitində təcrübə qazanmaq imkanları əldə edirlər.




Bu fəaliyyət xüsusilə tələbələr üçün ona görə əhəmiyyətlidir ki, onlar hələ universitet illərində öz maraq və bacarıqlarını sınaya, hansı istiqamətdə inkişaf etmək istədiklərini müəyyənləşdirə bilirlər. Eyni zamanda, könüllülük onların əmək bazarında digər namizədlərdən fərqlənmələrinə kömək edir.

Biz Azərbaycan Könüllü Təşkilatları İttifaqı olaraq bunun real nəticələrini də müşahidə edirik. Elə könüllülərimiz var ki, hər hansı bir dövlət qurumunda könüllü kimi fəaliyyətə başlayıb, öz bacarıq və məsuliyyətləri ilə fərqlənib, daha sonra həmin orada da əməkdaş kimi fəaliyyətlərini davam etdiriblər. Bu, könüllülüyün gənclər üçün bir növ karyera başlanğıcı və peşəkar inkişaf məktəbi rolunu oynaya bildiyini göstərir".

T.Rəcəbovanın sözlərinə görə, burada ən vacib məqam odur ki, könüllülük fəaliyyətinə yalnız "təcrübə toplamaq" kimi yanaşılmasın:

"Könüllü real məsuliyyət daşımalı, təşəbbüs göstərməli və gördüyü işə dəyər qatmalıdır. Çünki bu prosesdə qazanılan bilik və bacarıqlarla yanaşı, formalaşan işgüzar münasibətlər və etimad da gələcək karyera üçün böyük əhəmiyyət daşıyır.

İnanırıq ki, universitet illərində könüllülük fəaliyyətinə qoşulan gənclər həm cəmiyyətə fayda verir, həm də öz gələcək karyeralarına sərmayə qoyurlar. Bu baxımdan könüllülük gənclər üçün sadəcə bir fəaliyyət deyil, özünü kəşf etmək, təcrübə qazanmaq və gələcək peşəkar həyata hazırlaşmaq üçün mühüm fürsətdir".

**Rəşid QARAYEV**

---

Nobel mükafatı laureatı

"Elm təkcə çox məqalə dərc etmək və ya yüksək impakt faktorlu jurnallarda çap olunmaq demək deyil". Bu barədə Nobel mükafatı laureatı Ömər Yaqi Çin mətbuatına verdiyi müsahibəsində bildirib. "Azərbaycan müəllimi" xəbər verir ki, müsahibəsində Nobel laureatı fundamental elmin dəyərini diqqətə çatdırıb. Onun fikrincə, "Fundamental elm dərhal tətbiq üçün aparılmır. Məqsəd təbiətin necə işlədiyini anlamaqdır. Böyük texnologiyalar çox vaxt əvvəlcə "praktik faydası yoxdur" görünən fundamental kəşflərdən yaranır". O, bu mövzuda danışarkən bir neçə əsas prinsipi vurğulayıb: Elmi dürüstlük və rigor (ciddilik). Nəticələr yalnız güclü eksperimental sübutlara əsaslanmalıdır. Alim əvvəlcə öz fərziyyəsinə şübhə ilə yanaşmalıdır.Optimizm və şübhənin balansı: Onun sözləri ilə desək, yaxşı alim həm "Niyə olmasın?" deyəcək qədər cəsarətli, həm də "Bunun həqiqətən doğru olduğuna necə əmin ola bilərik?" deyəcək qədər tənqidi olmalıdır. Tələbələrin əməyinə hörmət: Əgər tələbənin işi elmi baxımdan düzgündürsə, onun nəticələri "çox səs-küylü" olmasa belə dərc edilməlidir. Elmdə məqsəd yalnız məşhur nəticələr deyil, etibarlı bilik yaratmaqdır. Alim 2025-ci ildə Nobel mükafatına layiq görülmüş kəşfini (Metal-Organic Frameworks) nümunə göstərərək bildirib ki, əvvəlcə məqsəd yeni kimyanı anlamaq idi. Sonralar həmin materiallar havadan su toplamaq, karbon qazını tutmaq, qazların saxlanması kimi tətbiqlərə çevrilib. Onun fikirincə, tətbiqlər çox vaxt fundamental biliklərin gözlənilməz nəticəsi olur. Ö.Yaqi öz həyat təcrübəsindən çıxış edərək təhsilin rolunu vurğulayır və əsas mesajlarını diqqətə çatdırır: Təhsil yoxsulluq və məhdud imkanlardan çıxış yoludur. Qaçqın ailəsində böyüməsinə baxmayaraq, valideynləri təhsili hər şeydən üstün tutublar. Yaxşı müəllim yalnız bilik vermir, düşünmə tərzini formalaşdırır. Doktorluq rəhbəri ona elmi dəqiqliyi və nəticələri ciddi şəkildə yoxlamağı öyrədib. Digər mentorları isə risk almağı və yaradıcı olmağı təşviq ediblər. Müxtəlif müəllimlərdən fərqli dərslər almaq normaldır. Alimə görə, vacib olan onların ən yaxşı xüsusiyyətlərini birləşdirərək öz elmi düşüncə tərzini formalaşdırmaqdır. Universitetlərin əsas missiyası yalnız peşə hazırlamaq deyil, maraq hissini qorumaq və yeni bilik yarada bilən insanlar yetişdirməkdir.

# Elmdə dürüstlük istedaddan daha vacibdir



**Alimin elm fəlsəfəsinə görə:**

Yaxşı elm = dürüstlük + ciddi metodologiya + yaradıcı düşüncədir.

Fundamental tədqiqat = gələcəyin texnologiyalarının təməlidir.

Yaxşı təhsil insanın düşüncə tərzini və xarakterini formalaşdıran ən güclü vasitədir, elmi nailiyyətlərin əsasında da məhz bu dayanır.

**Yaxşı elm nədir?**

Ö.Yaqi "yaxşı elm" anlayışını məqalələrin sayı və ya yüksək impakt faktoru ilə əlaqələndirmir. Onun fikrincə, yaxşı elmin əsas xüsusiyyətləri bunlardır:

**Dürüstlük.** Ən vacib prinsip həqiqətə sadiqlikdir. Əgər nəticə fərziyyəni təsdiq etmirsə, alim onu dəyişdirməməli və gizlətməməlidir. Elmin məqsədi haqlı çıxmaq deyil. Elmin məqsədi həqiqəti tapmaqdır.

**Keyfiyyət.** Yaxşı tədqiqat eksperimental sübutlara əsaslanır; təkrar oluna və başqaları tərəfindən yoxlanıla bilir. Ö.Yaqi hesab edir ki, möhkəm nəticələr sensasiyalı nəticələrdən daha qiymətlidir.

**Maraq.** Elm "bunu necə edə bilərəm?" sualından əvvəl "Niyə belə olur?" sualı ilə başlayır. Bu maraq fundamental tədqiqatın əsas hərəkətverici qüvvəsidir.

**Risk almaq.** Ən böyük elmi nailiyyətlər təhlükəsiz mövzulardan deyil, çətin və əvvəllər həll edilməmiş problemlərdən yaranır.

**Fundamental elm niyə vacibdir?**

Ö.Yaqi müsahibəsində qeyd edir ki, fundamental elm gələcəyin texnologiyalarının toxumudur. Əgər yalnız bugünkü problemləri həll etməyə çalışsaq, 20-30 ildən sonra böyük yeniliklər meydana çıxmaz. Tarixi nümunələrə istinad edən alim qeyd edir ki, bir çox mühüm texnologiyalar əvvəlcə "praktik əhəmiyyəti olmayan" araşdırmalar idi. Məsələn: kvant mexanikası, lazer yarımkeçiricilər, DNT-nin quruluşunun öyrənilməsi.

Məhz bu tədqiqatların nəticəsində kompüterlər, internet, mobil telefonlar, MRT cihazları, GPS yaranıb. Öz elmi təcrübəsinə istinad edən alim bildirib ki, MOF materiallarını hazırlayarkən məqsədi yeni kimyanı anlamaq idi. O vaxt heç kim bu materialların atmosferdən su toplayacağını, karbon qazını tutacağını, hidrogen saxlayacağını proqnozlaşdırmırdı. Bu tətbiqlər sonradan meydana çıxdı. Buradan çıxan dərs isə budur: Əvvəl bilik yaranır, sonra texnologiya.

**Böyük ideyalar necə yaranır?**

Ö.Yaqi hesab edir ki, yeni ideya müxtəlif sahələrin birləşməsindən yaranır. Kimya, fizika, materialşünaslıq, riyaziyyat, mühəndislik bir-birindən ayrılmamalıdır. Müasir elm multidissiplinar xarakter daşıyır.

**Uğursuzluğun rolu.** Alim uğursuzluğu elmi prosesin normal hissəsi hesab edir. Əksər eksperimentlər ilk cəhddə uğurlu olmur. Ancaq hər uğursuz eksperiment alimə yeni məlumat verir. Buna görə də uğursuzluq vaxt itkisi deyil, öyrənmə prosesidir.

**Tələbələrlə işləmək.** Ö. Yaqi hesab edir ki, alim yalnız məqalə yazmır. O, həm də insan yetişdirir. Laboratoriyada əsas məqsəd yeni alimlər formalaşdırmaqdır.

**Tələbəyə münasibət.** Onun fikrincə, yaxşı rəhbər tələbənin marağını öldürməməlidir; sərbəst düşünməsinə imkan verməlidir; səhv etməsinə şərait yaratmalıdır. Çünki yaradıcı ideyalar yalnız sərbəst mühitdə yaranır.

**Təhsil haqqında.** Öz şəxsi həyatından danışan alim qeyd edir ki, ailəsi maddi cəhətdən zəif olsa da, təhsili hər şeydən üstün tuturdu. Onun fikrincə, təhsil insanın həyat trayektoriyasını dəyişə bilər. Müəllimin rolundan danışan alim yaxşı müəllimi məlumat ötürən insan kimi yox, düşünməyi öyrədən insan kimi qiymətləndirir. Ən yaxşı müəllim tələbəyə hazır cavab vermir. Ona düzgün suallar verməyi öyrədir.

O öz müəllimlərindən fərqli xüsusiyyətlər öyrəndiyini deyir. Birindən dəqiqlik, digərindən cəsarət, başqasından isə yaradıcılıq. Nəticədə insan öz elmi üslubunu formalaşdırır.

**Elmdə xarakter.** Yaqi elmi yalnız bilik deyil, xarakter məsələsi hesab edir. Onun fikrincə, alim 5 əsas xüsusiyyətə malik olmalıdır: dürüst, təvazökar, səbirli, tənqidi düşünən, əməksevər. Bu xüsusiyyətlər istedaddan daha vacib ola bilər.

**Nobel laureatı gənc tədqiqatçılara öz tövsiyələrini də çatdırıb:**

1. **Böyük suallar seçin.** Kiçik problemlər də vacibdir, amma böyük kəşflər böyük suallardan başlayır.
2. **Marağınızı qoruyun.** Elm məcburiyyət deyil, maraq üzərində qurulmalıdır.
3. **Riskdən qorxmayın.** Ən maraqlı nəticələr ən çətin problemlərdə gizlənir.
4. **Tələsməyin.** Keyfiyyət sürətdən vacibdir.
5. **Səhvlərdən öyrənin.** Hər uğursuz eksperiment gələcək uğurun bir hissəsidir.
6. **Fərqli sahələri öyrənin.** Müasir problemlər yalnız bir elm sahəsi ilə həll olunmur.

Alimə görə, elm qısamüddətli nəticə əldə etmək üçün deyil, təbiəti daha dərindən anlamaq üçündür. Məhz bu anlayış gələcəyin ən böyük texnologiyalarına və cəmiyyət üçün faydalı yeniliklərə yol açır.

Bu fikirlər təkcə elm adamları üçün deyil, müəllimlər, tələbələr və innovasiya ilə məşğul olan hər kəs üçün dəyərli istiqamətverici prinsiplərdir.

**Ömər Yaqinin çıxışından əsas fikirlər:**

1. **"Yaxşı elm" nəticədən əvvəlki prosesdir.** Yaqinin ən mühüm mesajlarından biri budur ki, elmin keyfiyyəti əldə olunan nəticədən çox, həmin nəticəyə necə gəlinməsi ilə ölçülür. Bu fikir müasir elmdə geniş qəbul olunan prinsiplərlə üst-üstə düşür:

*-təkrar oluna bilən nəticələr (reproducibility),*

*-açıq elmi metodologiya (open science),*

*-tənqidi qiymətləndirmə (peer review),*

*-etik davranış.*

Bu o deməkdir ki, alim yalnız "uğurlu nəticə" əldə etməyə deyil, etibarlı bilik yaratmağa çalışmalıdır.

**2. Ən böyük kəşflər əvvəlcədən planlaşdırılmır**

Ö.Yaqi qeyd edir ki, MOF-lər üzərində işləyərkən məqsədi su toplamaq və ya karbon qazını tutmaq deyildi. O, sadəcə yeni material sinfi yaratmağa çalışırdı. Bu, elmdə serendipity (gözlənilməz kəşf) anlayışını xatırladır. Tarixdə buna çox nümunə var: penisillinin kəşfi; rentgen şüaları; teflon; mikrodalğalı soba; CRISPR texnologiyası.

O hesab edir ki, əgər yalnız "sabah bazara çıxacaq məhsul" haqqında düşünülərsə, gələcəyin böyük kəşfləri üçün zəmin zəifləyə bilər.

**3. Fundamental elm iqtisadiyyatın gizli mühərrikidir**

İlk baxışda fundamental elm xərc kimi görünə bilər. Əslində isə o, yeni sənaye sahələrinin, yeni texnologiyaların, yeni şirkətlərin, yeni iqtisadiyyatın əsasını qoyur. Məsələn, 1930-cu illərdə kvant mexanikası nəzəri fizika hesab olunurdu. Bu gün isə onun nəticələri: kompüterlərdə, smartfonlarda, lazerlərdə, internet rabitəsində, tibbi diaqnostikada istifadə olunur. Yaqi qeyd edir ki, bugünkü fundamental tədqiqat sabahın iqtisadiyyatıdır.

**4. Universitetlərin missiyası**

Ö.Yaqi universiteti yalnız diplom verən müəssisə hesab etmir. Onun fikrincə universitet yeni bilik yaradır; tənqidi düşüncə formalaşdırır; gələcəyin alimlərini yetişdirir; cəmiyyət üçün yeni ideyalar istehsal edir.

Onun qənaətinə görə, universitet yalnız əmək bazarı üçün kadr hazırlamamalıdır. O, həm də cəmiyyətin intellektual inkişaf mərkəzi olmalıdır.

**5. Müəllim və mentor arasındakı fərq**

Ö.Yaqi müəllimlə mentoru fərqləndirir. Onun fikrincə, müəllim bilik öyrədir, mövzunu izah edir. Mentor isə insan yetişdirir; düşünməyi öyrədir; xarakter formalaşdırır; elmi mədəniyyət ötürür. Bu, xüsusilə doktorantura səviyyəsində çox vacibdir.

**6. Risk almayan elm böyük yenilik yarada bilməz**

Əgər bütün layihələr yalnız uğur ehtimalı yüksək olan mövzulara yönəlsə, inqilabi yeniliklərin sayı azalacaq. Ö.Yaqi hesab edir ki, elm müəyyən qədər risk tələb edir. Çünki yeni ideya əvvəlcə həmişə qəribə görünür. Tarixdə bir çox tədqiqatlar, kəşflər əvvəlcə Nobel mükafatı üçün qəbul edilməyib.

**7. Səhv etmək elmin ayrılmaz hissəsidir**

Laboratoriyada uğursuz eksperiment uğursuz alim demək deyil. Əksinə, uğursuz eksperiment yeni məlumatdır. Bu yanaşma tələbələr üçün xüsusilə vacibdir. Çünki gənc tədqiqatçılar çox vaxt ilk uğursuzluqdan sonra ruhdan düşürlər.

**Ö. Yaqinin çıxşından maraqlı fikirlər (məzmun üzrə)**

*-Elm həqiqəti tapmaq üçündür, haqlı çıxmaq üçün deyil.*

*-Böyük ideyalar maraqdan başlayır.*

*-Ən yaxşı alimlər çox sual verənlərdir.*

*-Tələbələr laboratoriyanın gələcəyidir.*

*-Fundamental elm gələcəyin texnologiyalarını yaradır.*

*-Elmdə dürüstlük istedaddan daha vacibdir.*

*-Uğursuz eksperiment də nəticədir.*

*-Müəllim bilik verir, mentor isə düşüncə formalaşdırır.*

Beləliklə Ö.Yaqi çıxışında əslində elmi mədəniyyətdən bəhs edir. O göstərir ki, elmi tərəqqinin əsasında bahalı avadanlıqdan əvvəl insan amili dayanır: maraq, dürüstlük, səbir, risk almaq cəsarəti və yaxşı mentorluq.

Alimin qənaəti belədir ki, "elm yalnız bugünkü problemləri həll etmək üçün deyil, hələ verilməmiş sualların cavabını axtarmaq üçündür. Əgər cəmiyyət fundamental biliyə sərmayə qoyursa, onun bəhrəsini bəzən onilliklər sonra görür, lakin bu bəhrə çox vaxt iqtisadi və texnoloji baxımdan böyük olur. Elm cavabları əzbərləmək deyil, düzgün suallar vermək mədəniyyətidir".

Ö.Yaqi elmi peşədən çox düşüncə tərzi kimi təqdim edir. Onun fikrincə, maraq bilikdən əvvəl gəlir; dürüstlük istedaddan vacibdir; fundamental tədqiqat gələcəyin texnologiyalarını mümkün edir; müəllimin ən böyük işi tələbəyə düşünməyi öyrətməkdir.

Qeyd edək ki, Ömər Munis Yaqi (Omar Yaghi) Fələstin əsilli ABŞ kimyaçısıdır. 1965-ci ildə İordaniyanın Amman şəhərində fələstinli qaçqın ailəsində anadan olub. 15 yaşında ABŞ-yə köçüb. Kaliforniya Universitetinin (Berkli) professorudur. Metal-üzvi karkasların (MOF) inkişaf etdirilməsi sahəsində qabaqcıl tədqiqatlar aparıb. Səhra havasından su toplamaq, karbon qazını udmaq və qazları saxlamaq üçün yeni molekulyar strukturlar kəşf edib. O, 2025-ci ildə kimya üzrə Nobel mükafatına layiq görülüb. Hazırda Ömər Yaqi ABŞ-nin Kaliforniya Universitetinin Berli kampusundakı (UC Berkeley) vəzifəsindən ayrılaraq Çinin Tsinxua Universitetində yeni yaradılan Süni İntellekt İnstitutuna rəhbərlik edir.

**Oruc MUSTAFAYEV**

**Bakı Mühəndislik Universiteti (BMU) ölkənin ali təhsil müəssisələri sırasında müasir elmi-tədqiqat və tədris infrastrukturu ilə seçilir. Universitetdə təhsilin keyfiyyətinin yüksəldilməsi, elmi fəaliyyətin genişləndirilməsi, tələbələrin praktiki bilik və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə laboratoriyaların maddi-texniki bazasının davamlı olaraq gücləndirilməsi istiqamətində mühüm işlər həyata keçirilir. Müasir laboratoriya infrastrukturu tələbələrə gələcək peşə fəaliyyətinə yüksək hazırlıq səviyyəsi ilə başlamaq imkanı yaradır ki, bu da universitet məzunlarının əmək bazarında rəqabətqabiliyyətinin artırılmasında mühüm rol oynayır.**




# Keyfiyyətli təhsil və uğurlu karyeranın etibarlı təməli

Son illərdə bu yöndə görülən tədbirlər çərçivəsində universitetdə yeni laboratoriyalar yaradılaraq istifadəyə verilib. Bunlar sırasında Kibertəhlükəsizlik, Biotexnologiya, Kompüter, Süni intellekt və data elmləri, Şəbəkə və sistem təhlükəsizliyi, Yusif Məmmədəliyev adına Üzvi sintez və materialşünaslıq, Aqrokimyəvi analizlər, Materialşünaslıq və digər prioritet istiqamətləri əhatə edən laboratoriyalar yer alır.

Hazırda BMU-da ümumilikdə 20-dən çox müasir laboratoriya fəaliyyət göstərir. Bunlara kompüter laboratoriyaları, mexanika mühəndisliyi laboratoriyaları, elektronika və informasiya-kommunikasiya texnologiyaları laboratoriyaları, kimya və kimya mühəndisliyi laboratoriyaları, biotexnologiya, mikroskopik tədqiqatlar və mikrobiologiya laboratoriyaları, fizika laboratoriyası və digər ixtisaslaşmış laboratoriyalar daxildir. Müasir avadanlıqlarla təchiz edilmiş bu laboratoriyalar tədris prosesinin praktiki komponentinin gücləndirilməsinə, elmi tədqiqatların keyfiyyətinin artırılmasına və innovativ layihələrin həyata keçirilməsinə əlverişli şərait yaradır.

Ötən 2 ildə Mexanika mühəndisliyi laboratoriyalarının müasir tələblərə uyğun yenidən qurulması, mövcud avadanlıqların bərpası və funksional vəziyyətə gətirilməsi istiqamətində kompleks tədbirlər gerçəkləşdirilib. Burada Avtomatik nəzarət, Mexanizmlər və maşın dinamikası, Daxili yanma mühərrikləri və avtomobil, Mexaniki vibrasiya və səsə nəzarət, Dağıdıcı olmayan sınaq üsulları, Layihələndirmə və uyğun modelləşdirmə, Emal üsulları, Material və metalloqrafiya, Materiallar müqaviməti, Aerodinamika və maye mexanikası, İstilik elmləri və istilik keçiriciliyi, Bərpa olunan enerjilər laboratoriyaları fəaliyyət göstərir. Bu infrastruktur tələbələrin layihə əsaslı təhsil almasına, müasir mühəndislik avadanlıqları ilə işləməsinə və elmi-tədqiqat fəaliyyətində iştirakına geniş imkanlar yaradır.

BMU-da laboratoriya infrastrukturunun davamlı şəkildə modernləşdirilməsi universitetin strateji inkişaf prioritetlərinin mühüm tərkib hissəsini təşkil edir. Bu istiqamətdə görülən sistemli işlər əmək bazarının tələblərinə cavab verən yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına mühüm töhfə verir. Eyni zamanda tələbələrin elmi-tədqiqat fəaliyyətinə cəlb olunmasına, beynəlxalq standartlara uyğun peşə kompetensiyalarının formalaşdırılmasına imkan yaradır, tədqiqatçılar üçün elmi araşdırmaların aparılması, innovativ layihələrin icrası, eləcə də sənaye ilə əməkdaşlığın genişləndirilməsi baxımından əlverişli elmi mühit formalaşdırır.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** Mob.: (010) 253-30-86; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 6862 **Sifariş:** 1063

**Məsul növbətçi:** S.Kərimova

# Pakistanda təqaüdlə təhsil proqramı elan edilib

**Pakistan İslam Respublikasının İqra Universiteti tərəfindən 2026—2027-ci tədris ili üzrə Azərbaycan Respublikasının şəhid və qazi övladları üçün "İlyas Hüseynov adına Qəhrəmanların Övladları üçün Təqaüd Proqramı" elan edilir.**

Bu barədə "Azərbaycan müəllimi"nə Elm və Ali Təhsil üzrə Dövlət Agentliyindən məlumat verilib.

Bildirilib ki, təqaüd proqramı çərçivəsində bakalavriat və magistratura (MS/MPhil) səviyyələrində kompüter elmləri, proqram mühəndisliyi, süni intellekt, biznesin idarə edilməsi, beynəlxalq münasibətlər, ingilis dili, media, səhiyyə elmləri, əczaçılıq, moda və dizayn istiqamətləri üzrə təhsil almaq imkanı yaradılır.

Təqaüd proqramına müraciət üçün son tarix 31 avqust 2026-cı il müəyyən edilib.



# ADNSU tələbəsi və məzunu beynəlxalq robot yarışında qızıl medal qazanıb




**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) tələbəsi və məzununun təmsil olunduğu Azərbaycan komandası Çinin paytaxtı Pekində keçirilən nüfuzlu "RobotChallenge 2026" beynəlxalq robot yarışında qalib olub.**

Bu barədə "Azərbaycan müəllimi"nə ADNSU-dan məlumat verilib.

Bildirilib ki, ADNSU-nun məzunu Fərid Mürşüdlü və universitetin "Mexatronika və robototexnika mühəndisliyi" ixtisası üzrə tələbəsi Vüqar Mürşüdlünün yer aldığı Azərbaycan komandası "Mini Sumo Adult" kateqoriyasında uğurlu nəticə göstərərək qızıl medal qazanıb.

Yarışda komandanın hazırladığı "Mini Sumo" robotu rəqiblərini geridə qoyaraq kateqoriya üzrə ən yüksək nəticəni əldə edib.

Qeyd edək ki, 2004-cü ildən keçirilən və indiyədək dünyanın 88 ölkəsindən komandaları bir araya gətirən "RobotChallenge" çempionatının tarixində Azərbaycan komandası ilk dəfə "Mini Sumo" kateqoriyasında qızıl medal qazanıb.

Fərid və Vüqar Mürşüdlü qardaşları robototexnika sahəsində əldə etdikləri bu nəticə ilə Azərbaycanı beynəlxalq arenada uğurla təmsil ediblər. "RobotChallenge 2026"da qazanılan qızıl medal ADNSU tələbə və məzunlarının beynəlxalq robototexnika yarışlarında əldə etdiyi mühüm nailiyyətlərdən biridir.

# Etibarsız sayılır

**Goranboy rayon** Dəliməmmədli şəhər tam orta ümumtəhsil məktəbi 1994-cü ildə bitirmiş Əsədov Elşən Saməddin oğluna verilmiş A-070226 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 29 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Qədimov Ramil Şahinoviçə verilmiş A-293040 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Poylu kənd tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Həsənova Turanə Məzahir qızına verilmiş B-408488 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 65 nömrəli tam orta ümumtəhsil məktəbi 2003-cü ildə bitirmiş Nəcəfova Dürdanə Əjdər qızına verilmiş A-673773 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 301 nömrəli tam orta ümumtəhsil məktəbi 2018-ci ildə bitirmiş Məmmədov Bəxtiyar İxtiyar oğluna verilmiş E-136272 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Yuxarı Xələc kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Bayramova (Mehdiyeva) Nuranə Valeh qızına verilmiş B-441015 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2009-cu ildə Süleymanova Lalə Rüstəm qızına verilmiş BB-I-012221 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 2 nömrəli tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Bəşirova Hökümə Zahid qızına verilmiş A-387283 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Qurumba kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Annaxanov Xudayberdi Meretdurdiyeviçə verilmiş A-515251 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 158 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Soltanlı (Asəfi) Suzanna Səyyam qızına verilmiş B-120433 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1999-cu ildə Yusifov Babək Ramiz oğluna verilmiş A-041577 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2011-ci ildə Əsədov Ələsgər Sərraf oğluna verilmiş B-224151 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 1 nömrəli ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbini 1999-cu ildə bitirmiş Məmmədova Nazilə Xizri qızına verilmiş A-269598 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Nizami kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Əliyeva Aynur Müzakir qızına verilmiş A-028646 nömrəli natamam orta təhsil haqqında şəhadətnamə (attestat) itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 104 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Kərəmov Dəyanət Nuru oğluna verilmiş B-488979 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Respublika Olimpiya İdman Liseyini** 2019-cu ildə bitirmiş Kərimov Qadir Namiq oğluna verilmiş E-182112 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır

**Bakı şəhər** 27 nömrəli tam orta ümumtəhsil məktəbi 2003-cü ildə bitirmiş Mədədova Şəfəq Hidayət qızına verilmiş A-651179 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 42 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Zeynalov Əhməd Firidun oğluna verilmiş E-281286 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2025-ci ildə Abbasov Hikmət Əhməd oğluna verilmiş AT-011857 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Ağstafa şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Yolçiyev Şahin Şakir oğluna verilmiş E-298845 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 2 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Novruzova Aysel Fazil qızına verilmiş E-329719 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Qobustan kənd tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Mehdiyev Kamran Zaur oğluna verilmiş E-430983 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 40 nömrəli tam orta ümumtəhsil məktəbi 1978-ci ildə bitirmiş Verdiyeva Sevinc Novruz qızına verilmiş 174262 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Turizm Kolleci** tərəfindən 2013-cü ildə Qədirova (Babazadə) Aygün Safəddin qızına verilmiş AA-036526 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Böyük Pirəli kənd tam orta ümumtəhsil məktəbi 2011-ci ildə bitirmiş Babazadə (Qədirova) Aygün Safəddin qızına verilmiş A-058626 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Qobu qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Əlizadə Gülər Abil qızına verilmiş əsas təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2011-ci ildə Rəhimov Rauf Mikayıl oğluna verilmiş B-227094 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Qovlar şəhər 2 nömrəli tam orta ümumtəhsil məktəbi 1999-cu ildə bitirmiş Müseyibov Camal Məhərrəm oğluna verilmiş B-067192 nömrəli ümumi orta təhsil haqqında attestat və 2001-ci ildə verilmiş A-569161 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Düz Cırdaxan kənd tam orta ümumtəhsil məktəbi 1986-cı ildə bitirmiş Quliyeva Xatirə Fərhad qızına verilmiş AK-234650 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Qədirli kənd tam orta ümumtəhsil məktəbi (Xatınlı kənd 2 nömrəli orta məktəb) 1985-ci ildə bitirmiş Abdullayeva (Quliyeva) Xalidə Camal qızına verilmiş 089895 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Yuxarı Öysüzlü kənd tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Qarayev Vüqar Fazil oğluna verilmiş B-617041 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** İsakənd kənd tam orta ümumtəhsil məktəbin VIII sinfini 1990-cı ildə bitirmiş Rüstəmov Vahid Hüseyn oğluna verilmiş A-738370 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Ləkçıplaq kənd 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş İbrahimova (Həmidova) Nuranə Nizam qızına verilmiş B-296416 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2014-cü ildə Məcidov Rəşid Vahid oğluna verilmiş A-046621 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Saray qəsəbə** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş İsmixanova (Səlimova) Ülkər Sərvər qızına verilmiş B-014849 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Dağlı kənd tam orta ümumtəhsil məktəbi 1997-ci ildə bitirmiş Kərimova Könül Əfsallədin qızına verilmiş AN-045652 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 11 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Hacıyev Elçin Hacıməmməd oğluna verilmiş B-108295 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 19 nömrəli tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Xəlilova Fidan Ramis qızına verilmiş A-328644 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.